# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 noyabr 2025-ci il, cümə axşamı
№ 211 (7038)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Regionun gələcəyini müəyyən edən tandem: Bakı - Vaşinqton saatları eyni vaxtı göstərir



Bax səh. 2

## Ağdam, günün mübarək!



Bax səh. 3

## Hədəf idarəetmədə yeni keyfiyyət dəyişikliyinə nail olmaqdır!

Bax səh. 3

## Qarakənd faciəsinin qaranlıq məqamları

Düz 34 il bundan əvvəl -1991-ci il noyabrın 20-də daha bir erməni məkrinə tuş gəldik. Həmin gün Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında faciəvi hadisə baş verdi - içərisində görkəmli Azərbaycan ziyalılarının və dövlət xadimlərinin olduğu hərbi vertolyot vurularaq partladıldı. Bu, ermənilərin çoxsaylı müharibə cinayətlərindən biridir.

Faciə nəticəsində vertolyotda olan 22 nəfərin hamısı həlak olub. Onların arasında Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, baş prokuror İsmət Qayıbov, Dövlət katibi Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, SSRİ Ali Sovetinin deputatları Vəli Məmmədov, Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Cəfərov, jurnalist Alı Mustafayev, operator Fəxrəddin Şahbazov, işıqçı Arif Hüseynzadə, bundan başqa, Rusiya və Qazaxıstan hərbi müşahidəçiləri də olublar.

Aradan 34 il ötsə də, Qarakənd faciəsinin bütün qaranlıq məqamlarına hələ də işıq salmaq mümkün olmayıb. Çoxlu sayda şübhə dolu məqamlar var. Əvvala onu qeyd edək ki, faciə baş verən vaxtı hərbi vertalyotun vurulması ilə bağlı ictimaiyyətə yanlış məlumat verilib. Belə ki, vertalyotun pis hava şəraiti ilə əlaqədar qəzaya uğradığı bildilib. Sonradan bu məlumat təkzib edilib və vertalyotun vurulduğu etiraf edilib. Sual isə dəyişməz olaraq qalır: Faciə niyə gizlədilirdi? Bunun göstərişi haradan gəlmişdi?

Digər bir müəmma isə siyahının tərtib edilməsi...

Bax səh. 5




Bax səh. 4

## Büdcə layihəsi Zəfərdən rifah cəmiyyətinə uzanan inkişaf strategiyasının maliyyə təminatıdır

## “Xarüqələr yaradan qətiyyətli Lider”

Bax səh. 5

## Ən etibarlı hesab olunan platformalar belə çökə bilər...

Bax səh. 5

## Körfəzdə güc balansı dəyişir: Qlobal Cənubun yüksəlişi sürətlənəcək

Son onilliklər ərzində Yaxın Şərq beynəlxalq münasibətlər sisteminin ən mürəkkəb coğrafiyası olaraq diqqət mərkəzində qalsa da, son illər bölgədə tamam yeni bir siyasi dinamizm formalaşır. Artıq qlobal təhlükəsizlik arxitekturasının sərhədləri dəyişir, dünya güclərinin təsir məkanları yenidən qurulur. Bu proses həm yeni riskləri, həm də yeni təhlükəsizlik ittifaqlarını doğurur. Məhz belə həssas bir mərhələdə Səudiyyə Ərəbistanı ilə ABŞ arasında imzalanmış strateji müdafiə və təhlükəsizlik müqaviləsi regional siyasi-hərbi balansı dəyişdirən əsas hadisələrdən biri kimi dəyərləndirilir. Bu müqavilə təkcə hərbi əməkdaşlıq sənədi deyil - bir çox siyasi mütəxəssislər sənədi Yaxın Şərqdə yeni güc düzəninin formalaşmasına təkan verən çoxvektorlu bir siyasi konsepsiyanın başlanğıcı kimi qiymətndərir.

Səudiyyə Ərəbistanının vəliəhdi və baş naziri Məhəmməd bin Salman Əl-Səudun Vaşinqtona səfəri çərçivəsində keçirilən görüş zamanı ABŞ prezidenti Donald Tramp ölkəsinin Səudiyyə Ərəbistanına Vaşinqtonun NATO-ya üzv olmayan əsas müttəfiqi statusu verdiyini və krallıqla strateji müdafiə müqaviləsi imzaladığını açıqlayıb. “Sizə məmnuniyyətlə bildirmək istəyirəm ki, Səudiyyə Ərəbistanını rəsmi olaraq NATO-ya üzv olmayan əsas müttəfiq kimi qəbul etməklə hərbi əməkdaşlığımızı yeni səviyyəyə qaldırırıq. Bu, onlar üçün çox vacibdir. Bunu sizə indi deyirəm, çünki bu kiçik sirri bu gecəyə qədər saxlamaq...

Bax səh. 6

## “Freedom House”dan növbəti qərəzli “hesabat”...




Bax səh. 6

## Virtual pul bazarı enişdə...




Bax səh. 7

# Regionun gələcəyini müəyyən edən tandem: Bakı - Vaşinqton saatları eyni vaxtı göstərir

## Post-Zəfər geopolitikası: ABŞ-Azərbaycan əməkdaşlığı və ya Avrasiya üçün yeni güc modeli

## Əlaqələrin yenilənən kodları: Orta Dəhliz, Zəngəzur və Qlobal Cənub müstəvisində strateji yaxınlaşma

**Son illər Azərbaycan beynəlxalq aləmdə özünü etibarlı, sözünə sadiq və qlobal proseslərdə stabil mövqe tutan dövlət kimi qəbul etdirib. Xüsusilə son 5 ildə ölkəmizin diplomatik xəttində müşahidə olunan yüksəliş Azərbaycanın beynəlxalq hüquqa hörmət edən, konstruktiv mövqe sərgiləyən, ədalət prinsipinə önəm verən aktor kimi nüfuzunu daha da gücləndirib. Bu gün dünyanın istənilən qitəsində Azərbaycanın tərəfdaş olduğu ölkələrin sayı artır. Bunun səbəbləri təsadüfi deyil: Bakı sözünə sadiqdir, ardıcıl siyasi xəttə malikdir, qlobal güclər qarşısında özünün milli maraqlarını uğurla qoruya bilir, regional və beynəlxalq səviyyədə təhlükəsizliyin təmininə töhfə verir. Bu tendensiyalar ABŞ - Azərbaycan münasibətlərinə də tam şəkildə şamil olunur. Xüsusilə ABŞ-da son seçkilərdən sonra hakimiyyətə qayıdan Donald Tramp administrasiyası ilə Bakı arasında 11 ay ərzində formalaşmış intensiv dialoq dövlətlərarası münasibətlərə yeni nəfəs gətirib. Enerji təhlükəsizliyi, regional sabitlik, qlobal təhlükə mənbələrinə qarşı mübarizə, yeni iqtisadi istiqamətlər üzrə əməkdaşlıq kimi sahələrdə tərəflər arasındakı əməkdaşlıqda mühüm irəliləyişlər qeydə alınıb. Azərbaycan özünün iqtisadi qüdrəti, regionda yaratdığı yeni nizam, Cənubi Qafqaz - Mərkəzi Asiya xəttində liderliyinin güclənməsi ilə təbii şəkildə Vaşinqtonun diqqət mərkəzinə çevrilib. ABŞ üçün Azərbaycan həm enerji təhlükəsizliyinin təminatçısı, həm Şərq-Qərb nəqliyyat xəttinin aparıcı ölkəsi, həm də Cənubi Qafqazda sabitliyi yaradan dövlət olaraq əhəmiyyət kəsb edir. Bu ilin avqustunda Vaşinqtonda baş tutan görüşlər isə münasibətləri tamamilə yeni mərhələyə çıxaran dönüş nöqtəsi sayıla bilər. Prezident İlham Əliyevlə Prezident Donald Tramp arasında baş tutan danışıqlar, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması barədə Strateji İşçi Qrupunun yaradılması haqqında imzalanan Anlaşma Memorandumu göstərdi ki, iki ölkənin münasibətləri artıq sadəcə əməkdaşlıq deyil, strateji uyğunlaşma mərhələsinə qədəm qoyur. Bu həm ABŞ-ın Azərbaycana dərin marağının, həm də Azərbaycanın enerji, logistika və geosiyasi baxımdan yüksələn rolunun təsdiqidir. Başqa sözlə, Azərbaycan-ABŞ münasibətləri bu gün yalnız ikitərəfli formatda xarakterizə olunmamalıdır, həm də geniş Avrasiya məkanının gələcək nizamını müəyyən edə biləcək strateji xətt üzrə dəyərləndirilməlidir.**



## Azərbaycan - ABŞ münasibətlərinin yeni arxitekturası...

Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq müxtəlif səviyyələrdə hər zaman stabil xarakter daşıyıb. Amma son bir ildə bu əməkdaşlığın mövzuları, coğrafiyası və siyasi çəkisi əhəmiyyətli dərəcədə genişlənib. Artıq tərəflər sadəcə regionda deyil, qlobal miqyasda da bir çox məsələlərdə eyni mövqe ortaya qoyurlar.

İlk növbədə ABŞ üçün Cənubi Qafqaz regionunda sabitliyin qorunması prioritet məsələlərdən biri sayılır - Azərbaycan isə bölgənin real təhlükəsizlik təminatçısı rolunda çıxış edir. 44 günlük Zəfər müharibəsindən sonra regionda formalaşmış yeni nizam ABŞ üçün də daha proqnozlaşdırılan və təhlükəsizlik baxımından stabil geosiyasi mühit yaratdı - bu isə Azərbaycanın qətiyyəti ilə baş verib.

Bakı-Vaşinqton əlaqələrində daim ən ön sırada duran amillərdən biri isə enerji təhlükəsizliyi sayılıb. Xüsusilə Avropada enerji böhranı yaşandığı dövrdə Azərbaycanın qaz ehtiyatları, enerji infrastrukturu və Xəzərdən Avropaya uzanan geniş enerji xətti Vaşinqton üçün strateji əhəmiyyət daşıyır və bu, dəfələrlə Ağ Ev adminstrasiyasının nümayəndələri tərəfindən dilə gətirilib. Enerji sektorundakı əməkdaşlıq artıq yeni bir çərçivəyə qədəm qoymaq üzəridir - "yaşıl enerji", Xəzər hövzəsində bərpa olunan enerji potensialının dünya bazarına çıxarılması, elektrik enerjisinin dəniz altı ilə nəqli kimi məsələlər münasibətlərin bu kontekstinə yeni məzmun qazandırır.

Paralel olaraq iki dövlət arasında siyasi dialoq da yüksək səviyyədədir - Azərbaycan ilə ABŞ bir çox beynəlxalq təşkilatlarda eyni mövqeni bölüşür:

- Transmilli cinayətkarlıqla mübarizə;
- Regional konfrantasiyaların genişlənməsinin qarşısının alınması;
- İqtisadi təhlükəsizliyin müdafiəsi.

Bu sahələrdə Bakı-Vaşinqton dialoqu son bir ildə daha sistemli xarakter alıb. Başqa sözlə, ABŞ - Azərbaycan münasibətləri bu gün genişdiapazonlu xarakter alıb, təhlükəsizlikdən energetikaya, iqtisadiyyatdan qlobal təhlükələrə qədər geniş spektrdə strateji məna qazanıb.

## ABŞ beyin mərkəzlərinin Azərbaycana artan marağı

Bu günlərdə Bakıda keçirilən "Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu" Forumunda da qeyd olunduğu kimi, son illərdə ABŞ-da fəaliyyət göstərən aparıcı beyin mərkəzlərinin - "Atlantic Council", "CSIS", "Hudson Institute", "Heritage Foundation" və digərlərinin Azərbaycanla bağlı araşdırmalara xüsusi yer ayırması təsadüfi deyil. Avqust görüşündən sonra bu dinamika daha da güclənib. ABŞ analitik dairələri də Azərbaycanın regional liderliyini tanıyır - artıq təhlillərdə Azərbaycan Cənubi Qafqazın geosiyasi ağırlıq mərkəzi kimi göstərilir. Bakının yeni regional dəhlizlərin qovşağında strateji nəqliyyat açarı rolunu oynaması, Mərkəzi Asiya ilə Qərbi birləşdirən Orta Dəhlizin təbii lideri sayılması kimi yanaşmalar kreativ düşüncənin Bakı-Vaşinqton əlaqələrinə verdiyi qiyməti ön plana çəkir. Çünki 2020-ci ildə qazanılan Zəfər bütövlükdə Cənubi Qafqazda və Avrasiyada yeni strateji reallığın əsasını qoyub. Bu reallıq regionun geosiyasi xəritəsini yenidən formalaşdırıb, güc balansını dəyişib və Azərbaycanın lider statusunu təsliqləyib. ABŞ-ın beyin institutlarının Azərbaycana marağı da məhz bu yeni konfiqurasiyanın nəticəsi olaraq yüksəlib. Vaşinqton anlayır ki, Avrasiyanın tam mərkəzində gələcək geosiyasi nizam Bakı üzərindən, bakının şərtləri əsasında formalaşacaq. Azərbaycanın Mərkəzi Asiyanın 5 dövləti ilə Məşvərət Şurasında tamhüquqlu iştirakçıya çevrilməsi də Bakı üçün bu mənada yeni strateji platforma yaradır. Bu platforma Avrasiyanın iki böyük regionunu - Cənubi Qafqazı və Mərkəzi Asiyanı - vahid geoiqtisadi məkana çevirir. ABŞ üçün bu məkan əvəzedilməzdir: burada həm enerji təhlükəsizliyi, həm qlobal ticarət, həm də Şərq-Qərb nəqliyyat xətti birləşir. Bu mənada Vaşinqtonun Bakıya münasibəti bütövlükdə regionun geoiqtisadi gələcəyi kontekstində dəyərləndirilməlidir.

## Qlobal Cənubun liderlərindən biri...

Azərbaycan bu gün təkcə Cənubi Qafqazın deyil, həm də Qlobal Cənub adlandırılan geniş coğrafiyanın aparıcı dövlətlərindən biridir. İqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, enerji keçidi, humanitar dəstək, inkişaf layihələri baxımından Azərbaycan artıq nümunəvi aktor kimi çıxış edir. ABŞ isə bu yeni reallığı dəyərləndirən ölkələr sırasındadır. Xüsusilə, son illər dünyada artan hərbi-siyasi toqquşmalar fonunda Azərbaycanın vasitəçilik fəaliyyəti daha da aktuallaşıb - Yaxın Şərq gərginliyinin başa çatması üçün göstərilən səylər bunu təsdiqləyir. Azərbaycanın neytral, rasional və balanslı siyasəti Qlobal Cənub üçün stabil model vəd edir. "Niyə məhz Azərbaycan?" sualına cavab da məhz bu ideyada möhkəmlənib:

- Azərbaycan regionda hərbi-siyasi sabitliyin əsas təminatçısıdır;
- Bakı həm Şimalın, həm Cənubun, həm Qərbin, həm də Şərqin dialoq aparmaq üçün etibar etdiyi platformadır;
- Azərbaycan enerji resurslarını siyasi təzyiq vasitəsinə çevirmir (Suriya və Avropa timsalında bunun şahidi oluruq);
- Bölgədə müharibələrin qarşısının alınmasında real zəmanət verə biləcək yeganə gücdür - bütün tərəflər isə paralel əməkdaşığa və ya münasibətə malikdir.

Vaşinqton isə bu reallığı nəzərə alır və Azərbaycanın Qlobal Cənub siyasətinə, Yaxın Şərq stratiegiyasına ciddi önəm verir. Azərbaycanın stabil və güclü olması bu gün Avrasiyanın geniş coğrafiyası üçün strateji zərurətdir.

# Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovdan

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu.**

Əziz qardaşım.

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə "Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında" qərarın yekdilliklə qəbul edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sözsüz ki, bu, tarixi miqyasda hadisədir. O, Mərkəzi Asiya və Azərbaycanın vahid geosiyasi və geoiqtisadi məkana çevrilməsini, beləliklə, xalqlarımızın və dövlətlərimizin qardaşlıq, mehriban qonşuluq, bərabərhüquqlu və əməkdaşlıq zəminində güclü birliyini, onların ayrılmazlığı və bölünməzliyi üzrə tarixi talelərinin düzgün qavranılmasını təcəssüm etdirir.

Qəti əminəm ki, qəbul edilən qərar tamamilə qanunauyğundur, Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın tarixi inkişaf yolunu, onların zəruri ehtiyaclarını və həqiqi maraqlarını obyektiv şəkildə əks etdirir.

Əsrlər boyu xalqlarımızı coğrafi qonşuluq, ortaq sivilizasiya kökləri, mədəniyyət, adət-ənənə və mənəvi dəyərlərin yaxınlığı birləşdirib. Bununla da müstəqillik şəraitində qarşılıqlı münasibətlərin nadir arxetipik nümunəsi yaradılıb və bu gün o, hazırkı və gələcək kontinental proseslərin inkişafında - siyasətdə, iqtisadiyyatda, sosial məsələlərdə və humanitar sahələrdə güclü amildir.

Məhz Mərkəzi Asiya və Azərbaycan transkontinental, çoxvektorlu qarşılıqlı əlaqədə əsas vəsilə olmaq vəzifəsini öz öhdələrinə götürüblər, bu, olmadan tarazlaşdırılmış, uğurlu və davamlı müasir iqtisadi arxitekturanın yaradılması mümkün deyil. Artıq ölkənizin bu ali məqsədin reallaşmasında iştirakı əlavə güclü siyasi-hüquqi təməllə möhkəmləndirilib.

Əziz qardaşım, Məşvərət Görüşü formatı bütün iştirakçılar üçün sülh, etimad, harmoniya, mehriban qonşuluq və qarşılıqlı faydalı tərəfdaşlığın təmin edilməsi üçün vacib platforma rolunu oynayır. Fəxr edirəm ki, Türkmənistan bu siyasi qarşılıqlı fəaliyyət formasının başlanğıcında dayanıb. Ölkəmizin Məşvərət Görüşünün yaradılması təşəbbüsü on beş ildən də çox əvvəl Özbəkistanda elan edilib və tam şəkildə dəstəklənib.

Növbəti addım Qazaxıstanda ilk rəsmi Məşvərət Görüşü oldu, burada çoxtərəfli dialoqun ideoloji təməlləri qoyuldu, onun uzunmüddətli məqsədləri və perspektivləri müəyyən edildi.

Bunun ardından razılaşdırılmış plana uyğun olaraq görüşlər Türkmənistanda, Qırğızıstanda və Tacikistanda keçirildi. Regiondaxili əməkdaşlığın əsas məsələləri və beynəlxalq gündəlik etimad əsasında və açıq atmosferdə müzakirə edildi, əhəmiyyətli qərarlar və razılaşmalar əldə olundu. Zaman bu formatın yaradılmasının düzgünlüyünü, onun aktuallığını və səmərəliliyini, xalqların və istisnasız olaraq bütün iştirakçı dövlətlərin fundamental maraqlarına uyğunluğunu göstərdi.

Qarşılıqlı anlaşmanın inkişafında, Məşvərət görüşlərinin əhəmiyyətinin və nüfuzunun artmasında yeni bir mərhələ Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanının təsis edilməsi idi. Onun ilk laureatı Tacikistan Respublikasının Prezidenti oldu.

Hörmətli İlham Heydər oğlu, mənim üçün xüsusi qürur və şərəf hissi doğuran fakt ondan ibarətdir ki, ölkəmizin təklifi ilə bu ilin avqust ayında "Avaza" Milli Turizm Zonasında BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə üçüncü Konfransı (UNCLDC) zamanı Mərkəzi Asiya Dövlət Başçılarının növbədənkənar Məşvərət Görüşü təşkil edildi. Məhz bu görüşdə Türkmənistan Azərbaycanın Məşvərət Görüşünə tamhüquqlu üzv kimi qoşulmasını və bununla da bu formatda əsas iştirakçıya çevrilməsini, əlaqələrini və qardaş xalqlar ailəsinə hərtərəfli inteqrasiyasını daha da gücləndirməsini təklif etdi. Böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, bu təşəbbüs Daşkənddə Mərkəzi Asiya ölkələrinin prezidentləri tərəfindən tam dəstəklənib və ortaq rifaha doğru irəliləyişimiz üçün olduqca əhəmiyyətli və perspektivli bir fakta çevrilib.

İnanıram ki, Sizin ölkənizin siyasi nüfuzunu, onun nəhəng resurs, sənaye, texnoloji potensialını, mədəni və humanitar sahələrdə əldə olunmuş nailiyyətlərini nəzərə alaraq, Azərbaycanın Məşvərət görüşləri formatına qoşulması ölkələrimizin və xalqlarımızın hərtərəfli yaxınlaşmasında həlledici amil, müasir regional və beynəlxalq inkişaf istiqamətlərində fəal iştirakın stimulu olacaq, məsuliyyətli, vahid mövqedən çıxış edən tərəfdaşlar, qlobal koordinasiya sistemində özünün layiqli rolunu və yerini dərk edən, qarşıya qoyulan məqsədlərə birlikdə çatmağa hazır olan Mərkəzi Asiya dövlətlərinin və Azərbaycanın rolunu, çəkisini artıracaq.

Hörmətli İlham Heydər oğlu, Sizi gələn il Türkmənistanda keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının 8-ci Məşvərət Görüşündə əziz qardaş və dost qismində gözləyirik.

Ən səmimi təbriklərimi qəbul etməyinizi bir daha xahiş edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə və beynəlxalq fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Qurbanqulu Berdiməhəmmədov,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri,***
***Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanının laureatı***

## Strateji Tərəfdaşlıq Xartiyası - daha effektiv və genişdiapazonlu əməkdaşlıq üçün

Avqust ayında baş tutan görüş Azərbaycan - ABŞ münasibətlərində dönüş nöqtəsi sayılır. Bu görüş iki ölkə liderinin qarşılıqlı siyasi iradəsini nümayiş etdirməklə yanaşı, Vaşinqtonun Bakıya verdiyi strateji qiymətin göstəricisinə çevrildi. Görüşün ən mühüm nəticəsi isə qeyd edildiyi kimi, "Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması" Anlaşma Memorandumunun imzalanması oldu. Bu sənəd bir neçə vacib məqamı təsdiqləyir:

- Azərbaycan ABŞ üçün regionda əsas tərəfdaşa çevrilir: ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet sayır.
- Əməkdaşlıq institusional çərçivəyə salınır: Münasibətlər təkcə siyasi bəyanatlardan ibarət deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaq.
- Dialoq genişlənir - təhlükəsizlik və müdafiə, enerji və "yaşıl keçid", iqtisadiyyat və investisiya, regional sabitlik və nəqliyyat dəhlizləri, humanitar əlaqələr güclənir.

Avqust görüşü həm də Vaşinqtonun Bakıya geosiyasi baxışının dəyişməsinin göstəricisidir. Artıq ABŞ regional təhlükəsizliyin və inkişafın Azərbaycanın liderliyi əsasında aparılacağını təsdiqləyir. Görüşə bu günün rakursundan baxsaq, Vaşinqton Azərbaycanın Mərkəzi Asiya ilə inteqrasiya prosesinin aparıcı aktoru olduğunu qəbul edir. ABŞ üçün Zəngəzur dəhlizi (TRİPP) artıq yalnız iqtisadi layihə deyil - həm də Qərb-Şərq birləşdirici xətti kimi qəbul olunur.

## Azərbaycan - ABŞ münasibətlərində yeni era...

Beləliklə, Azərbaycan - ABŞ münasibətlərində təxminən son 1 ildə müşahidə olunan dinamizm iki ölkə arasında yeni strateji mərhələnin formalaşdığını göstərir. Bu dinamizmin kökündə həm Azərbaycanın güclənən regional rolu, həm ABŞ-ın Avrasiyada yeni tərəfdaş qismində Bakını dəyərləndirməsi kimi reallıqlar dayanır. Avqust görüşü Vaşinqtonla Bakı arasında strateji sinxronluğun əsasını qoydu. Artıq iki ölkə münasibətləri sadəcə ikitərəfli əməkdaşlıq deyil, geniş Avrasiya məkanında siyasi və iqtisadi nizamın formalaşmasına yönəlmiş tərəfdaşlıq modelidir. Bu model isə özündə bir sıra hədəfləri birləşdirir:

- Regional sabitlik və təhlükəsizliyin təmin olunması;
- Yeni geoiqtisadi layihələr və qlobal ticarət marşrutlarının inkişafı;
- Qlobal Cənubun inkişafında ortaq missiya.

Nəticə etibarilə, ABŞ-Azərbaycan tərəfdaşlığı təkcə iki ölkə üçün deyil, bütövlükdə region və Avrasiya üçün yeni imkanlar yaradır. Bu əməkdaşlıq gələcəkdə daha da dərinləşəcək və beynəlxalq siyasi arxitekturanın mühüm sütunlarından birinə çevriləcək.

***Pərviz SADAYOĞLU***



# Ağdam, günün mübarək!

**20 noyabr Azərbaycan dövləti və xalqı üçün əlamətdar günlərdən biridir. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan şanlı zəfərlərlə son 200 illik tariximizin qürur səhifəsini yazan qalib Azərbaycan Ağdam Şəhəri Gününü qeyd edir. Bu bayram tarixi şəhərimiz olan Ağdamın işğaldan azad olunmasını simvolizə edir. Məhz tarixin bu günündə - 20 noyabr 2020-ci ildə şəhərin işğalına son qoyulub.**

## İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azd edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük qələbələrimizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi anlamına gəlir. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırlmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Dövlətimizin başçısının imzaladığı müvafiq Sərəncamda da vurğulandığı kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük Qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu. Sonrakı mərhələdə isə silahlı Qüvvələrimiz 2023-cü il 19-20 sentyabr tarixində Xankəndidə və digər ərazilərdə uğurlu lokal xarakterli antiterror əməliyyatı aparmaqla separatçıların tabutuna son mismarı vurdu və beləliklə də, Azərbaycanın suverenliyi tam şəkildə təmin edildi. Prezident İlham Əliyevin imzaladığı iki Sərəncama əsasən hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunur. Siyahını təqdim edirik:

26 avqust - Laçın şəhəri günü,
4 oktyabr - Cəbrayıl şəhəri günü,
17 oktyabr - Füzuli şəhəri günü,
20 oktyabr - Zəngilan şəhəri günü,
25 oktyabr - Qubadlı şəhəri günü,
8 noyabr - Şuşa şəhəri günü,
20 noyabr - Ağdam şəhəri günü,
25 noyabr - Kəlbəcər şəhəri günü.
20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü.

## İşğala qədərki dövrdə Ağdam bütün bölgənin ticarət mərkəzi sayılırdı

Ağdam Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu ərazidə özü üçün ağ daşdan imarət tikdirir.



Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ mayak rolunu oynayıb. Bu mənada “Ağdam” həm də “ağ ev”, “ağ şəhər” anlamına gəlir. 1930-cu ildə Ağdam rayonu yaradılıb. Rayonun sahəsi 1150 kvadratkilometrə bərabər idi.

İşğaldan əvvəlki dövrdə Ağdam ağ günlərini yaşayıb. Şəhər bütün bölgənin ticarət mərkəzi sayılırdı. Ətraf yaşayış məntəqələrinin sakinləri həftəlik və yaxud qışlıq azuqələrini toplamaq üçün bura üz tutardılar. Bu da onunla bağlı idi ki, Ağdam bazarında hər nə desən tapmaq mümkün idi. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. O vaxta qədər Ağdamın 1 şəhər, 124 kəndi var idi. Ağdam ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayon idi. Rayonda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metiz- furnitur, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, Ü.Hacıbəyli adına musiqi texnikumu, Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı və s. sosial və mədəniyyət obyektləri fəaliyyət göstərirdi. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi.

Ağdamda 145 tarix-mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Onlardan 1-i dünya əhəmiyyətli memarlıq, 3-ü dünya əhəmiyyətli arxeoloji, 3-ü ölkə əhəmiyyətli memarlıq, 96-sı ölkə əhəmiyyətli arxeoloji, 26-sı yerli əhəmiyyətli memarlıq, 4-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidəsi, 4-ü yerli əhəmiyyətli arxeoloji abidələrdir. Dünyada ikinci, keçmiş İttifaq məkanında isə birinci və yeganə çörək muzeyi olan Ağdam Çörək Muzeyi 1983-cü il noyabr ayında fəaliyyətə başlayıb. Ağdam Çörək Muzeyində toplanan eksponatlar arasında nadir dənli bitki növləri, taxılçılığın inkişafına dair çoxsaylı qiymətli kitablar, əlyazmalar və başqa materiallar, qədim əkinçilik alətləri sayılan xış, adi və dişli oraq, taxıl döyən vərdənə, əl dəyirmanı və başqa alətlər də olub. Muzey eksponatlarının ən qədimi-eramızdan əvvəl VII minilliyə aid olan daşlaşmış buğda dənələri idi. 1992-ci il avqust ayının 12-də ermənilərin atdığı mərmi nəticəsində Ağdam Çörək Muzeyinin fəaliyyətinə son qoyuldu və muzeydə olan 1500-dək eksponat yanaraq məhv oldu.

## Qafqazın Xirosiması

Ağdamın süqutu 23 iyul 1993-cü il tarixində baş verib. Bununla da rayonun ərazisinin təxminən 70 faizi ermənilərin nəzarətinə keçib. Erməni vandalizminin bütün cəhətlərini Ağdamın timsalında görmək mümkündür. Zamanında aran və dağlıq Qarabağın incisi sayılan Ağdam müharibədən sonra xarabalıqları xatırladırdı. Şəhərdən əsər əlamət yox idi. Göz işlədikcə uzanıb gedən ərazilərdə yalnız Cümə məscidinin qalıqlarını görmək mümkün idi. Düşmən məscidin qalıqlarını artilleriya atəşlərinin tənzimlənməsi üçün saxlayıb.

Hesablamalara görə, işğal rayona 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan vurub. Prezident İlham Əliyev erməni vəhşiliyi ilə bağlı danışarkən deyib: “Keçmiş Ağdam şəhərində, ondan qalan ərazidə səfərdə olmuş xarici jurnalistlər onu Qafqazın Xirosiması adlandırırlar. Mən hesab edirəm ki, bu, Xirosimadan da pisdir. Ona görə ki, Xirosima nüvə faciəsi, atom zərbəsi idi. Lakin oradan vandallar və barbarlar dəstəsi keçməmişdi. Bizə gəldikdə isə Ağdam şəhəri işğal ediləndən sonra dağıdılıb”.

## Ağdam bütün dünya üçün örnək olacaq

Şanlı Qələbə nəticəsində işğaldan azad edilmiş Ağdamın ağ günləri geri qayıdır. Azadlığına qovuşmuş bu şəhər böyük quruculuq, təmir-bərpa işlərinin şahidinə çevrilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva postmüharibə dövründə bir neçə dəfə Ağdama səfər edərək burada reallaşdırlan layihələrlə tanış olublar və özlərinin dəyərli tövsiyələrini veriblər. 2021-ci il mayın 28-də-Azərbaycanda dövlət bayramı kimi qeyd olunan Müstəqillik günündə isə Ağdam tarixi anlara şahidlik etdi. Belə ki, həmin tarixi gündə Prezident İlham Əliyevə Ağdam şəhərinin Baş Planı təqdim olunub. Qeyd edək ki, Baş Plan üzərində mütəxəssislərin iştirakı ilə bir müddət iş aparılıb. Sənəd hazırlanarkən şəhərin tarixi siması və müasir çağırışlar nəzərə alınıb. Əlbəttə, Ağdam şəhərinin Baş Planının dövlət başçısına təqdim olunması üçün başqa bir vaxt da seçilə bilərdi. Ancaq belə bir əlamətdar tədbirin dövlət bayramımız olan Müstəqillik günündə keçirilməsi böyük rəmzi məna daşıyır. Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında əminliyini ifadə edərək bildirib ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq. “Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Əvvəllər Ağdam şəhərinin əhalisi 36 min nəfər olub. Hazırda bu rəqəm 50 mindən yuxarıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Şəhərin 1700 hektar ərazidə salınması nəzərdə tutulub. Beləliklə, Ağdam iki dəfə böyüyəcək - əvvəllər şəhərin ərazisi 700-800 hektar təşkil edirdi. Ağdamda 1750 fərdi ev, 23 min mənzil inşa olunacaq. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. Mərkəzi hissə şəhərin ən sıx yerini təşkil edəcək. Şəhərin ətrafı intensiv bağlarla əhatə olunacaq.

Ümumiyyətlə, postmüharibə dövründə Ağdamda icrasına başlanan layihələrin sayı kifayət qədər çoxdur. Artıq işğaldan azad olunmuş bir sıra ərazilər kimi, Ağdam rayonuna da ilk köç karvanları yola salınıb.

***Mübariz FEYİZLİ***

# Hədəf idarəetmədə yeni keyfiyyət dəyişikliyinə nail olmaqdır!

**Ölkəmizdə 2003-cü ildən etibarən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq davamlı islahatlar həyata keçirilir. Bütün istiqamətləri əhatə edən islahatlar inkişafa güclü təkan verir. Qabaqcıl beynəlxalq təcrübə və ölkəmizin reallıqları nəzərə alınmaqla hazırlanan islahatların reallaşdırılması sayəsində irəli getmək, uğur qazanmaq, daha yuxarı pilləyə yüksəlmək üçün yeni fürsət pəncərələri açılır. Bir sıra hallarda islahatlar sahəvi səciyyə daşıyır. Yəni yeni proqramlar hazırlanarkən konkret istiqamətlərin özəllikləri və məhz bu sahə üzrə müəyyənləşdirilən hədəflər nəzərə alınır. Dövlət quruculuğunda, idarəetmədə aparılan islahatların nəticələri isə ayrılıqda götürülmüş bir sahədə deyil, ümumən ölkənin inkişafında təzahür edir. Bu baxımdan idarəetmənin yenilənməsi məqsədilə aparılan islahatlar daha böyük məsuliyyət yaradır. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı müvafiq Fərmanla təsdiqlənən “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi” ölkəmizin inkişafının indiki mərhələsində müvafiq dövlət qurumlarının fəaliyyətində yeni keyfiyyət dəyişikliklərinə nail olunmasına hesablanıb.**

## Dövlətin siyasi iradəsi, cəmiyyətin sosial sifarişi



Aydın məsələdir ki, idarəetmə strukturuna bir ehkam kimi yanaşmaq olmaz. Zaman dəyişdikcə, çağırışlar təzələndikcə idarəetmə strukturunun da buna uyğunlaşmasına zərurət yaranır. Hazırda Dördüncü sənaye inqilabı dövrüdür, innovasiyalar həyatın bütün sahələrinə getdikcə daha çox dərəcədə nüfuz edir. Belə bir şəraitdə idarəçilikdə köhnə metodların tətbiqi, əlbəttə ki, məqbul deyil, bu, zamandan geri qalmaq deməkdir. Zamanın tələbinə uyğun olaraq idarəetmə strukturlarının fəaliyyətinin optimallaşdırılması, necə deyərlər, qlobal trenddir və Azərbaycan da bu proseslərdən kənara qala bilməz.

Eyni zamanda, məsələyə ölkəmizin reallıqları kontekstində yanaşmalıyıq. Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev vəzifələrə yeni təyin olunmuş icra başçıları ilə keçirdiyi görüşündə respublikamızdakı real mənzərəni göz önündə canlandırdı. Bildirildiyi kimi, ayrı-ayrı məmurlar cəmiyyətə pis nümunə göstərirlər, etimaddan sui-istifadə edirlər, şəxsi məqsədlər güdürlər. Nümunəvi inkişaf modelinə malik olan Azərbaycanın idarəçiliyində belə mənfi hallara yer olmamalıdır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və Özünün şəxsi nümunəsi ilə təsdiqlədiyi siyasət vətəndaşyönümlüdür. O, tez-tez regionlara səfərlərə getməklə, ictimaiyyət nümayəndələri ilə görüşüb onların arzu və istəklərini öyrənməklə əslində dövlət və cəmiyyəti bir-birinə yaxınlaşdırır. Belə də olmalıdır. Azərbaycan Prezidentinin prinsipial yanaşması ondan ibarətdir ki, dövlət xalqa xidmət etməli, xalqın həyat şəraitini yaxşılaşdırmaq, vətəndaş məmnunluğunu təmin etmək üçün fəaliyyət göstərməlidir. Dövlətin bu funksiyası icra strukturları və rəhbər vəzifələr tutan məmurlaar vasitəsi ilə reallaşdırılır. Deməli, son nəticədə dövlət idarəçiliyində keyfiyyət göstəriciləri bilavasitə strukturların və onların başında dayanan kadrlardan asılıdır. Dövlət başçısının təsdiqlədiyi Nümunəvi Əsasnamə də məhz dövlət idarəçiliyində keyfiyyət göstricilərini daha yüksək səviyyəyə qaldırmaqdan ibarətdir. Əgər bu gün Azərbaycan dünya miqyasında yüksək standartlara malik ölkə kimi qəbul edilirsə, heç bir halda yol verməк olmaz ki, hansısa bir idarəetmə strukturunun və yaxud hansısa bir məmurun yarıtmaz fəaliyyəti buna kölgə salsın. Prezident İlham Əliyev dövlət idarəçiliyinə o fəlsəfədən yanaşır ki, XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil. İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin.

Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətlərinə verilən tələblər Azərbaycanın yeni baxışlarını və müasir simasını əks etdirəcək. Burada heç şübhəsiz ki, kadrlar mərkəzi fiqurlar qismində çıxış edəcəklər. Kadrlar idarəetməyə yeni nəfəs və dinamizm gətirməlidirlər. Ölkəmizdə aparılan islahatların, o cümlədən də şəffaflaşdırmanın, neqativ hallara qarşı mübarizənin əhatə dairəsinin davamlı şəkildə genişləndirilməsinin, ideoloji işin, gənclərə qayğının, könüllülük hərəkatının genişlənməsinin məntiqi nəticəsi olaraq sağlam ruhlu nəsil formalaşmaqdadır. Yeni idarəetmə modelini də məhz bu nəsil irəli aparacaq və daha uğurlu edəcək. Dövlətin, Prezidentin siyasi iradəsi, cəmiyyətin sosial sifarişi də məhz bundan ibarətdir.



## Dövlət və ictimai münasibətlərdə olduqca mühüm hadisə

Ölkəmizdə ictimaiyyət nümayəndələri, ziyalılar da mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsinin təsdiqlənməsini, idarəetmənin yeni çərçivələrinin müəyyənləşdirlməsini alqışlayırlar. “Dövlət canlı orqanizmə bənzəyir. Onun işlək vəziyyətdə olması, sağlam inkişaf etməsi və tərəqqisi üçün daim islahatlar həyata keçirilməli, struktur və kadr dəyişikliyi aparılmalıdır”. Bu fikri “Yeni Azərbaycan”a açıqlamasında Milli Məclisin İqtisadi Siyasət və Sahibkarlıq Komitəsinin sədr müavini Azər Badamov ifadə edib. Deputatın sözlərinə görə, ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında dövlət idarəçiliyinin davamlı olaraq təkmilləşdirlməsinə və daha yüksək pilləyə qaldırılmasına hesablanan qərarlar verilib. Bu baxımdan ölkə Prezidentinin 17 noyabr 2025-ci il tarixində imzaladığı Fərmanla “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”nin təsdiqlənməsi dövlət və ictimai münasibətlərdə olduqca mühüm hadisədir.

Milli Məclisin üzvü bildirib ki, təsdiqlənən sənədə əsasən, mərkəzi icra hakimiyyəti orqanı normativ hüquqi aktlarla müəyyən edilmiş sahələrdə dövlət siyasətini, dövlət nəzarətini, dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirir. Mərkəzi icra strukturları öz fəaliyyətlərində Azərbaycan Konstitusiyasını, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələri və digər qanunvericilik bazasını, eləcə də Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Orqanın hüquqi aktlarını rəhbər tutur.

Azər Badamov bildirib ki, dövlət orqanları arasında koordinasiya vacib amildir. Bu baxımdan sözügedən əsasnamənin müddəaları daha geniş əhatə dairəsinə malikdir. Belə ki, əsasnamədə mərkəzi icra hakimiyyəti orqanlarının digər qurumlarla koordinasiyalı fəaliyyəti ilə yanaşı, onların vətəndaş cəmiyyəti institutları ilə sıx əlaqədə fəaliyyət göstərmələri hədəflənir. Sənədlə müəyyənləşdirilir ki, mərkəzi icra hakimiyyəti orqanları müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət həyata keçirməli, dövlət maraqlarının qorunmasını təmin etməli, eyni zamanda, müvafiq sahədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə nail olmalı, onların pozulmasının qarşısını almalıdır. “Sənədə əsasən, mərkəzi icra hakimiyyəti orqanı vahid dövlət siyasətinin formalaşmasında sadəcə iştirak etməklə kifayətlənməməli, həm də bu siyasətin həyata keçirilməsini təmin etməlidir. Diqqətçəkən amillərdən biri də odur ki, müvafiq Orqan müəyyən və təqdim edilmiş normalar daxilində fəaliyyət göstərməklə məhdudlaşmamalı, həm də onun özünün normayaratma fəaliyyəti olmalıdır. Mərkəzi icra hakimiyyəti orqanı Azərbaycan Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə də fəaliyyət göstərməli və etimadı doğrultmalıdır”, - deyə Azər Badamov vurğulayıb.

Deputat Prezident İlham Əliyevin vəzifələrə yeni təyin olunmuş icra başçıları ilə görüşdə verdiyi ciddi mesajların ardından “Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi”ni təsdiqləməsinin bir-birini tamamladığına diqqət çəkib. Bu, ölkə Prezidentinin dövlət idarəçiliyinin daha da optimallaşdırılmasına, bu sahədə yeni keyfiyyət dəyişikliyinə nail olunmasına verdiyi ciddi önəmin ifadəsidir. Qürurverici haldır ki. idarəetmə islahatları Qalib Azərbaycanın bütün ərazilərində həyata keçirilir. Dövlət başçımız tərəfindən idarəçilikdə yeni yanaşmanın, yeni vizyonun, əslində isə yanlış fikirlərdən təmizlənən idarəçilik modelinin tətbiqini görürük. Fərmanda da göstərilir ki, dövlət - özəl tərəfdaşlığı vacibdir. Mərkəzi icra hakimiyyəti orqanları sahibkarlara dəstək verməlidirlər. “İxtisaslı kardlara bütü sahələrdə ehtiyac var. Peşəkar kadrlar dövlətin onurğa sütunudurlar, desək, yanılmarıq. Bu baxımdan Fərmanda da göstərildiyi kimi kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək mühüm işdir”, - deyə Azər Badamov bildirib.

“Yeni reallıqlar və çağırışlar bizdən son dərəcə ehtiyatlı davranmağı tələb edir” deyən deputat vurğulayıb ki, Azərbaycanın yaratdığı reallıqları qəbul etmək istəməyən, uğurlarımızı gözü götürməyən aktorların, maraqlı qüvvələrin mövcudluğu fonunda dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlərlərin görülməsi son dərəcə vacibdir. Buna görə də mərkəzi icra hakimiyyəti orqanları fəaliyyət istiqamətlərinə uyğun zəruri təhlükəsizlik tədbirləri görməlidirlər. Deputat qeyd edib ki, aparılan idarəetmə islahatları son nəticədə Azərbaycan dövlətinin və cəmiyyətinin daha da möhkəmlənməsini hədəfləyir.

***Mübariz ABDULLAYEV***

# Büdcə layihəsi Zəfərdən rifah cəmiyyətinə uzanan inkişaf strategiyasının maliyyə təminatıdır

## 2026-cı ilin büdcə layihəsi parlamentin plenar iclasında müzakirə edilib

Milli Məclisin noyabrın 19-da keçirilən plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub. Maliyyə naziri Sahil Babayev bildirib ki, müstəqillik tariximizin ən böyük büdcə zərfi olan 2026-cı ilin büdcə layihəsinin müzakirəsi müasir dövlətçilik tariximizə qızıl hərflərlə yazılmış Zəfərin beşinci ildönümünə təsadüf edir. Bu Qələbə məhz Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti, dövlət və ordu quruculuğunda həyata keçirilən ardıcıl islahatlar, eləcə də iqtisadi və maliyyə imkanlarımızın səmərəli səfərbər olunması nəticəsində əldə edilib. Bu gün təqdim edilən büdcə layihəsi də məhz Zəfərdən rifah cəmiyyətinə uzanan inkişaf strategiyasının maliyyə təminatıdır.

Növbəti ilin büdcə layihəsi də tarixi Zəfərə gətirib çıxarmış yolun davamı kimi təqdim olunur. Uzunmüddətli makroiqtisadi dayanıqlılığın təməl şərtləri olan strateji valyuta ehtiyatlarının 82,5 milyard dollara çatması və xarici dövlət borcunun ÜDM-in cəmi 6 faizinə bərabər olması iqtisadi siyasətin səmərəliliyinin və islahatların nəticələrinin daha bir göstəricisidir. Xüsusi vurğulamaq lazımdır ki, həyata keçirilən çoxşaxəli islahatlar beynəlxalq reytinq agentlikləri tərəfindən də nəzərə alınır və Fitç agentliyindən sonra cari ildə "Moody`s" tərəfindən də Azərbaycanın suveren kredit reytinqi investisiya dərəcəsinə qaldırılıb.

### Gəlirlərin əsas mənbəyi qeyri-neft sütunları olacaq

Sahil Babayev bildirib ki, 2026-cı il üzrə dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 253 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1 milyard 447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur. Növbəti il üçün dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artacaq. Belə ki, gəlirlərin 57,4 faizi və ya 22,174 milyon manatı qeyri neft-qaz sektorunun, 42,6 faizi və ya 16,435 milyon manatı isə neft-qaz sektorunun payına düşür. Eyni zamanda, büdcədə vergi daxilolmalarının 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq. Bu, son 20 ildə ən yüksək səviyyədir. 2025-ci il dövlət büdcəsinin proqnoz göstəricisi ilə müqayisədə neft-qaz sektorunun gəlirləri 1.876 milyon manat və ya 10,2 faiz az, qeyri neft-qaz sektorunun gəlirləri isə 2,129 milyon manat və ya 10,6 faiz çox olacaqdır. Nəticədə bu dəyişiklik büdcənin neft amilindən asılılığının daha da azalmasına gətirib çıxaracaq.

Neft-qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 78,1 faizini və ya 12 milyard 835 milyon manatını Dövlət Neft Fondundan (DNF) transfert, 21,9 faizini və ya 3 milyard 600 milyon manatını vergi orqanlarının xətti ilə neft-qaz sektorundan daxilolmalar təşkil edir. DNF-nin dövlət büdcəsinə transfertinin məbləği 2025-ci ilin səviyyəsindən 1 milyard 646 milyon manat və ya 11,4 faiz az proqnozlaşdırılır. Nazir bildirib ki, dövlət büdcəsinə neft-qaz amilinin təsirinin azaldılması, xərclərin maliyyələşdirilməsində dayanıqlı mənbələrin payının artırılması qarşıda duran əsas hədəflərdən biridir. Bu baxımdan, tətbiq edilən büdcə qaydası çərçivəsində ortamüddətli dövr ərzində icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin ardıcıl şəkildə azaldılması nəzərdə tutulur. Növbəti il üçün icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin yuxarı həddi 19 faiz proqnozlaşdırılır. Bu da cari ilə nəzərən 3,4 faiz bəndi az olmaqla, fiskal qayda tətbiq ediləndən bəri ən yaxşı göstəricidir. Ortamüddətli dövrün sonuna, yəni 2029-cu ildə bu nisbətin 13 faizə endirilməsi, dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin mövcud 30 faiz səviyyəsində saxlanılması nəzərdə tutulur. Qeyd olunan hədəflər uzunmüddətli fiskal dayanıqlığın və makroiqtisadi sabitliyin təmin edilməsi məqsədlərinə xidmət etməklə, ölkəmizin qarşısında duran inkişaf gündəliyinin icrası üçün əlverişli platforma yaradacaq.

### Büdcə xərcləri 41,7 milyard manat həcmində proqnozlaşdırılıb

2026-cı ilin dövlət büdcəsinin xərcləri 41,7 milyard manat həcmində proqnozlaşdırılıb. Bu, cari illə müqayisədə 296 milyon manat və ya 0,7 faiz, ötən illə müqayisədə isə 4 milyard manat və ya 10,6 faiz çoxdur. Büdcənin xərc prioriteti kimi ilk sıralarda Böyük Qayıdışa dair I Dövlət Proqramı durur. Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan məqsədlərə uyğun olaraq, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s. tədbirlərin maliyyə təminatı üçün 3,5 milyard manat vəsait nəzərdə tutulub. Bu, ümumi xərclərin 8,4 faizinə bərabərdir.

Ümumilikdə, 2020-ci ilin sonundan etibarən azad ərazilərdə aparılan yenidənqurma və quruculuq işlərinə hər il dövlət büdcəsinin imkanları səfərbər edilərək cari ilin əvvəlinə 17,6 milyard manat vəsait xərclənib. Cari ilin sonuna isə bu xərclərin 22 milyard manata çatması gözlənilir.

Nazir vurğulayıb ki, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi sahəsində maliyyə təminatı da əsas prioritetlərindən biri kimi müəyyən edilib. Həmin xərclərin məbləği 8 milyard 714,8 milyon manat nəzərdə tutulub ki, bu da 2025-ci illə müqayisədə 318,5 milyon manat çoxdur.



### Xarici dövlət borclanmasının yuxarı həddi 6 milyard manat olacaq

Maliyyə naziri vurğulayıb ki, 2026-cı ildə dövlət borclarına xidmətlə bağlı xərclər 2,5 milyard manat məbləğində proqnozlaşdırılır. Daxili dövlət borclanmasının yuxarı həddi 2 milyard manat, xarici dövlət borclanmasının yuxarı həddi 6 milyard manat və dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi 3 milyard manat məbləğində təklif edilir.

Nazir qeyd edib ki, hazırda ölkəmiz dövlət borcunun ÜDM-ə nisbəti baxımından ən aşağı ölkələrdən biridir. Borc portfelinin tərkibində dövlətin xarici borcu ümumi borc portfelinin 32,8 faizinə bərabərdir ki, bu da dövlət borcunun məzənnə və xarici bazar risklərinə həssaslığını azaldır. Cari ildə görülən tədbirlər nəticəsində istiqrazların orta ödəmə müddəti 2,4 dəfə artaraq 3,5 ilə çatdırılıb, istiqraz portfelində 7 və 10 illik istiqrazların payı 30 faiz bəndi artıb. Bu isə istiqrazların yenidən maliyyələşdirilməsi və ödəmə yükünün optimallaşdırılmasına imkan yaradır.

### Büdcənin 41 faizi sosialyönlü xərclərə yönəldiləcək

Sahil Babayev bildirib ki, gələn il dövlət büdcəsi xərclərinin 41 faizi, cari xərclərin isə 68 faizi və yaxud 17,1 milyard manat sosialyönlü xərclərə yönəldiləcək. Bu, 2024-cü ilin icra göstəricisi ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz çoxdur. Bu isə 2026-cı ildə də sosialyönlü xərclərin əsas prioritetlər sırasında olacağı deməkdir. Ortamüddətli büdcə dövrü ilə, yəni 2022-ci illə müqayisədə sosialyönlü xərclər 5,6 milyard manat və ya 48 faiz çox olacaq. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-ci ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Ortamüddətli büdcə dövrü ilə müqayisədə, yəni, cəmi 4 illik dövrdə bu xərclər 41 faiz artıb. Cari illə müqayisədə 151 milyon manat artımla proqnozlaşdırılan sosial müavinətlər, təqaüdlər və digər sosial ödənişlərə 2,8 milyard manat vəsait sərf ediləcək. Sosial siyasətin digər vacib istiqaməti kimi keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər növbəti ildə 285 milyon manat proqnozlaşdırılır.

Büdcədən təhsil və elm xərclərinə isə ayrılan vəsait 5,2 milyard manat nəzərdə tutulub. Bu, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur. Ortamüddətli büdcə dövrü, yəni, 2022-ci illə müqayisədə 2026-cı ildə təhsil və elm xərcləri 36 faiz artacaq. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayı 150 min nəfərə, təqaüd alanların sayı isə 121 min nəfərə çatacaq. Gələn il əlilliyi olan, valideyn himayəsindən məhrum olmuş, şəhid ailələri və müharibə veteranı statusu almış güzəştli kateqoriyaya aid olan 18,5 min tələbənin təhsil və təqaüd xərcləri üçün 42 milyon manat vəsait proqnozlaşdırılıb.

Gələn ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 2 milyard manat vəsait ayrılacaqdki, bu da 2024-cü ilin icra göstəricisinə nisbətən 11 faiz çoxdur. Səhiyyə xərcləri üçün dövlət büdcəsindən ayrılan vəsait dövlət büdcəsi xərclərinin 4,9 faizini təşkil edir. Bütövlükdə gələn il üçün icmal büdcədən səhiyyə xərclərinə cəmi 3,7 milyard manat vəsait ayrılacaq ki, bu da 2025-ci ilə nisbətən 227 milyon manat və ya 6,4 faiz çoxdur. Büdcədə kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyə təminatı üçünsə 1,2 milyard manat proqnozlaşdırılıb. Kənd təsərrüfatına ayrılacaq vəsaitin 42 faizi və yaxud 513 milyon manatı ərzaq təhlükəsizliyi tədbirlərinə, o cümlədən subsidiyalara, kənd təsərrüfatı texnikası və avadanlıqlarına, habelə suvarma sistemlərinə güzəştlərə yönəldiləcək.

### Qeyri-neft sektoru inkişafın əsas mənbəyinə çevrilir

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası davam etməkdədir. Son 5 ildə iqtisadiyyatın əsas inkişaf mənbəyi olan qeyri-neft-qaz sektorunun bütün sahələri artım nümayiş etdirib. Eyni zamanda, 2019-2024-cü illərdə qeyri-neft-qaz ixracı 2 dəfə böyüyərək, 3,4 milyard dolları olub, ixrac edilən əmtəə sayı 15 faiz artaraq 2810-a çatıb. Neft-qaz qiymətlərinin və hasilatın azalmasına baxmayaraq, 2022-ci ildən bəri ölkənin xarici ticarət dövriyyəsi təqribən 50 milyard dollar səviyyəsində sabitləşib. 2022-2024-cü illərdə xarici ticarət balansında isə Dövlət Neft Fondunun qızıl idxalı istisna olmaqla, orta illik hesabla 16 milyard ABŞ dolları məbləğində müsbət saldo olub. Qeyri-neft-qaz xidmətləri ixracı isə 45 faizədək artaraq 6,5 milyard dolları ötüb.

Nazir bildirib ki, son illərdə dövlət büdcəsinin qeyri-neft-qaz gəlirlərinin artımı vergitutma bazası genişləndirməklə, büdcənin gəlir və xərclərinin artımına da təmin edib. Bu, eyni zamanda, əhalinin gəlirləri və müəssisələrin sərmayələri əhəmiyyətli dərəcədə artmasına səbəb olub. 2025-ci ilin gözlənilən rəqəmi nəzərə alınmaqla əhalinin gəlirlərinin ən mühüm mənbəyi olan əməkhaqqı fondu qeyri-neft-qaz özəl sektorda 2019-2025-ci illərdə 3 dəfə artıb. Bu, vergi ödəyicilərinin sayının artmasına səbəb olub, 2019-cu il yanvarın 1-i ilə müqayisədə 2025-ci il noyabrın 1-i tarixinə ölkədə aktiv vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 845 mini ötüb. Eyni zamanda, iş yerlərinin davamlı sayı artıb. 2019-cu il yanvarın 1-dən 2025-ci il noyabrın 1-dək orta təqvim günləri hesabı ilə qeyri-neft-qaz özəl sektorda 200-ə yaxın yeni iş yerinin yaradılması qeydə alınıb.

Növbəti ildən gəlir vergisi üzrə dəyişikliklər barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, aşağı gəlirlərə aşağı vergi dərəcəsi tətbiq olunacaq. Belə ki, qeyri-neft-qaz özəl sektorda əməkhaqlarının tədricən, mərhələli şəkildə vergiyə cəlb ediləcək, 2500 manatadək əməkhaqlarından gələn il 3 faiz, 2026-cı ildə 5 faiz vergi tutulacaq. Həmin gəlirlər 2028-ci ildə hətta 7 faiz dərəcə ilə vergiyə cəlb olunsa belə, bu güzəştin tamamilə ləğv olunduğu təqdirdə tətbiq olunmalı 14 faiz dərəcə ilə müqayisədə yenə də iki dəfə aşağıdır.

### Strateji valyuta ehtiyatları 82,5 milyard dollara çatıb

Azərbaycanın maliyyə-bank sektorunda müsbət dinamikanın qeydə alındığını bildirən Mərkəzi Bankın (MB) sədri Taleh Kazımovun sözlərinə görə, 2025-ci ildə qlobal iqtisadi mühit çox dəyişkən olub və bu dövrdə qlobal ticarətdə qeyri-müəyyənliklər əhəmiyyətli dərəcədə yüksəlib. Cari ildə qlobal iqtisadi artım nisbətən zəifləmiş və inflyasiya aşağı templərlə azalıb. Baş verən mənfi meyillərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını qoruyub saxlayaraq cari ilin 10 ayı ərzində iqtisadi artımın böyüməsinə nail olub. Bu dövrdə iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olub, bu sektorda ümumi daxili məhsul (ÜDM) 3,1 faiz böyüyüb. 2025-ci ilin sonuna ÜDM-in 2,2 faiz, 2026-cı ilin sonuna isə 2 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz ümumi daxili məhsulu isə bu ilin sonunda 3,7 faiz, növbəti ildə isə 4,4 faiz artımla fərz edilir.

T.Kazımov vurğulayıb ki, cari ilin ötən 10 ayında tədiyyə balansının əsas komponenti olan xarici ticarət balansı 2,4 milyard dollar müsbəti saldo səviyyəsində formalaşıb. Oktyabr proqnozlarına əsasən, cari əməliyyatlar hesabının profisiti 2025-ci ilin sonunda 3,7 milyard ABŞ dollar səviyyəsində formalaşacaq. MB sədri qeyd edib ki, ölkəmizin strateji valyuta ehtiyatları 16,2 faiz artaraq 82,5 milyard dollara çatıb. Bu göstərici tarixi maksimum olmaqla ölkəmizin iqtisadi gücünü və onun maliyyə dayanıqlılığını əks etdirir.

### Büdcə sənədi Dayanıqlı İnkişaf Məqsədlərini əks etdirir

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov vurğulayıb ki, 2026-cı il üçün dövlət büdcəsinə dair Palatanın rəyi büdcə sənədinin mövcud qanunvericilik aktlarına uyğun olmasını təsdiqləyir, nəzərdə tutulmuş gəlir və xərclər, habelə büdcə kəsirinin proqnoz göstəriciləri düzgün və tamdır. Bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə baxışlar dövlət maliyyəsinə nəzarət orqanının mövqeyini ifadə edir.

V.Gülməmmədov qeyd edib ki, büdcə layihəsi üzrə təqdim olunan sənədlərdə bəzi yeniliklər də tətbiq edilib. Belə ki, məlumatlılığın yüksəldilməsi istiqamətində müəyyən addımlar atılıb, sənədlərə ortamüddətli xərclər çərçivəsi ilə bağlı ümumi məlumatlar, habelə qanunvericilikdə nəzərdə tutulmuş dəyişikliklərin layihələri daxil edilib, dövlət büdcəsi xərclərinin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunluğu barədə məlumatlılıq genişləndirilib. Palata sədri, bununla yanaşı, qarşıdakı illərdə fiskal diaqnostika alətlərinin tələbləri də nəzərə alınmaqla "Büdcə zərfi"nə daxil olan məlumatların siyahısının, çeşidinin və keyfiyyətinin artırılması, maliyyə məlumatlarının qeyri-maliyyə məlumatları ilə müşayiət edilməsi üçün addımların atılmasına zərurət olduğunu istisna etməyib. "Büdcə zərfi"ndə yalnız neftin qiyməti üzrə ssenarilər əsasında fiskal parametrlər şərh edilir, bu baxımdan iqtisadiyyatın qeyri neft-qaz sektoru, eləcə də inflyasiya üzrə risklər və ssenarilər barədə açıqlamalar verilməsi də təklif olunur.

***E.CƏFƏRLİ***

# "Xarüqələr yaradan qətiyyətli Lider"





Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və partiyanın Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyevanın "Xarüqələr yaradan qətiyyətli Lider" adlı kitabının təqdimat mərasimi keçirilib.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin inzibati binasında keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov bildirib ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarını müvəffəqiyyətlə həyata keçirən, ölkəmizin ərazi bütövlüyü və suverenliyini tam təmin edən güclü Lider kimi adını tarixə qızıl hərflərlə yazdırıb. Vurğulayıb ki, Prezident İlham Əliyev Vətən və dövlət qarşısında müstəsna xidmətləri ilə xalqımızın tükənməz hörmət və məhəbbətini qazanıb. Təqdimatı keçirilən kitabda da məhz bu məqamlardan geniş bəhs olunur.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə hazırda Azərbaycanın inkişafının ən möhtəşəm dövrünü yaşadığını deyib: "Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycanın inkişaf strategiyasının müəllifidir. Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Vətən müharibəsində 30 illik işğala son qoyulması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, Azərbaycan Ordusunun gücünün və qüdrətinin ifadəsidir".



YAP Veteranlar Şurasının sədri bildirib ki, Prezident İlham Əliyevin liderliyinin fəlsəfəsi tarixi anı düzgün qiymətləndirmək və ən çətin vəziyyətlərdə belə doğru qərar vermək bacarığına əsaslanır. Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsi bu müdrik siyasətin nəticəsidir. Zərifə Quliyevanın müəllifi olduğu kitabda Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən Zəfər yoluna geniş nəzər salıb.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, kitabın redaktoru Əliqismət Bədəlov isə çıxışında diqqətə çatdırıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda aparılan müharibənin nəticəsi olaraq əldə olunan şanlı Zəfər, yaranan yeni reallıqlar "Xarüqələr yaradan qətiyyətli Lider" adlı kitabda oxucuların diqqətinə faktlarla çatdırılır. Kitabda Prezident İlham Əliyev ölkəmizin inkişaf yolunu müəyyən edən, dövlətçilik dayaqlarını möhkəmləndirən qurucu və islahatçı Lider olaraq təqdim olunur.

Tədbirdə, həmçinin AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Siyasətin fəlsəfəsi və sosiologiyası" şöbəsinin müdiri, professor Rəna Mirzəzadə, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, yazıçı, tədqiqatçı Sayman Aruz, Dövlət İmtahan Mərkəzinin şöbə müdiri Afiqə Batıyeva, YAP Veteranlar Şurasının üzvü, professor Adilə Abasova, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, YAP Veteranlar Şurasının üzvü Tahir Quliyev, Biologiya elmlər doktoru, dosent Tubuxanım Qasımzadə "Xarüqələr yaradan qətiyyətli Lider" adlı kitabın əhəmiyyətindən bəhs edərək bildiriblər ki, Azərbaycanı həm hərb meydanında, həm diplomatiya, həm də informasiya cəbhəsində qalib gəlməsi Prezident İlham Əliyevin uzaqgörənliyinin, müdrikliyinin və qətiyyətli liderliyinin nəticəsidir.

Qeyd ediblər ki, kitabda Azərbaycanı Zəfərə aparan yol həm siyasi, həm də fəlsəfi baxımdan şərh edilir. Diqqətə çatdırılıb ki, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qüdrətli dövlətə çevrilib. Əldə olunan nailiyyətlərin zirvəsində isə işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi və suverenliyimizi təmin edən bir günlük antiterror tədbirləri dayanır. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, bütün sahələrdə sürətli inkişafa nail olunub, Azərbaycanın siyasi-iqtisadi imkanları genişləndirilib, beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib.

YAP Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyeva çıxış edərək deyilən xoş sözlərə görə və kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi uğurlardan geniş bəhs edərək vurğulayıb ki, dövlət başçısının rəhbərliyi ilə əldə olunan nailiyyətlər bizi gələcəyə daha nikbin baxmağa sövq edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri bu reallığı bir daha təsdiqləyir.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Qarakənd faciəsinin qaranlıq məqamları

Düz 34 il bundan əvvəl -1991-ci il noyabrın 20-də daha bir erməni məkrinə tuş gəldik. Həmin gün Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında faciəvi hadisə baş verdi - içərisində görkəmli Azərbaycan ziyalılarının və dövlət xadimlərinin olduğu hərbi vertolyot vurularaq partladıldı. Bu, ermənilərin çoxsaylı müharibə cinayətlərindən biridir.

Faciə nəticəsində vertolyotda olan 22 nəfərin hamısı həlak olub. Onların arasında Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov, baş prokuror İsmət Qayıbov, Dövlət katibi Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, SSRİ Ali Sovetinin deputatları Vəli Məmmədov, Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Cəfərov, jurnalist Alı Mustafayev, operator Fəxrəddin Şahbazov, işıqçı Arif Hüseynzadə, bundan başqa Rusiya və Qazaxıstan hərbi müşahidəçiləri də olublar.

Aradan 34 il ötsə də Qarakənd faciəsinin bütün qaranlıq məqamlarına hələ də işıq salmaq mümkün olmayıb. Çoxlu sayda şübhə dolu məqamlar var. Əvvala onu qeyd edək ki, faciə baş verən vaxtı hərbi vertalyotun vurulması ilə bağlı ictimaiyyətə yanlış məlumat verilib. Belə ki, vertalyotun pis hava şəraiti ilə əlaqədar qəzaya uğradığı bildilib. Sonradan bu məlumat təkzib edilib və vertalyotun vurulduğu etiraf edilib. Sual isə dəyişməz olaraq qalır: Faciə niyə gizlədilirdi? Bunun göstərişi haradan gəlmişdi?

Digər bir müəmma isə siyahının tərtib edilməsi, Azərbaycan cəmiyyətinin, necə deyərlər, qaymaqlarının eyni bir vertalyotla silahlı toqquşmalar baş verən münaqişə bölgəsinə göndərilməsi ilə bağlıdır. Faciə ərəfəsində, daha dəqiq desək, 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vuraraq Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirməyi xahiş edir. Əsl səbəb isə həmin ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakının planlaşdırılması idi. Bu telefon zəngindən sonra Bakıda iclasda iştirak edəcək şəxslərin siyahısı tərtib edilib. Rəsmi Moskva həmin vaxt Azərbaycanda böyük nüfuza malik şəxslərin, o cümlədən Dövlət katibi Tofiq İsmayılovun, baş prokuror İsmət Qayıbovun həmin siyahıda yer alması üçün xüsusilə israr edirdi. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi haqqında qərar qəbul olunsa da, faciədən bir gün əvvəl, gecə ikən "ölüm siyahısı" təcili qaydada yenilənir, Belə ki, Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Yeni siyahını Ayaz Mütəllibov təsdiqləyir.

Bundan sonra digər bir müəmmalı hərəkət izlənilir. Qaydalara görə, içərisində tanınmış dövlət xadimlərinin və ziyalıların olduğu helikopteri hərbi vertalyotlar mühafizə məqsədilə müşayiət etməliydilər. Bu da baş verməyib. Heç kim vertalyotun mühafizəsi barədə danışmayıb.



Uçaq qəzalarında "qara qutular" ümid yeri kimi görünür. Azərbaycan ictimaiyyəti gözləyirdi ki, "qara qutu" oxunduqdan sonra Qarakənd faciəsinin gizli qalan sirləri açılacaq. Ancaq gözləntilər əbəs idi. Diqqət yetirək: Faciə ilə bağlı 21 noyabr 1991-ci ildə Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılır və istintaqın davam etdirilməsi üçün Respublika Prokurorluğuna verilir. Lakin sonradan cinayət işi üzrə istintaq dayandırılır. Səbəb kimi hadisənin baş verdiyi ərazinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunması göstərilir. Bundan başqa, Xankəndidəki rus qarnizonunun hərbi prokuroru anası erməni olan İ.Lazukitin faciə ilə əlaqədar cinayət işi açır, amma cinayətin təsdiqlənməsi üçün əsas sübut olan vertolyotun "qara qutu"sunu da ələ keçirərək ona toxunmağı qadağan edir, bizim mütəxəssislərimiz qara qutuya yaxın buraxılmır. Bəhanə isə guya "qara qutu"nun partlayış nəticəsində əriyib sıradan çıxması göstərilib. Beləliklə, "qara qutu"nun hansı sirləri gizlətdiyini aşkarlamaq mümkün olmayıb.

Müəmmaların siyahısı bununla da tamamlanmır. Hadisədən sonra cinayətlə bağlı müxtəlif iddialar səsləndirilib. Qəzaya uğrayan helikopterə yaxınlaşan maşın karvanını görən çobanın ifadəsinin silinməsi, azərbaycanlıların yerli özünümüdafiə dəstəsinə rəhbərlik edən "Qatır Məmməd" ləqəbli Yaqub Rzayevin qəza barədə müxtəlif fikirlər səsləndirdikdən sonra həbsxanada müəmmalı şəkildə ölməsi, vacib istintaq detallarının itməsi faciənin hələ də qaranlıq qalan müəmmalarıdır.

Ermənilərin havadarlarının dəstəyi ilə bu cinayətə əl atmalarında əsas məqsədləri azərbaycanlıların gözünü qorxutmaq və onların doğma yurd yerlərindən çıxıb getmələrinə nail olmaq idi. Bir neçə ildən sonra ermənilər öz niyyətlərinə çatdılar. Yenə də havadarlarının dəstəyi ilə Azərbaycanın ərazilərinin 20 faizini işğal altına almağa və bir milyondan artıq soydaşımızı tarixi yurd yerlərindən qovmağa nail oldular. Ancaq bu "uğur" müvəqqəti idi. Qisas qiyamətə qalmadı. Müzəffər Ordumuz 44 günlük müharibəni və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatını böyük qələbələrlə tamamlayaraq düşmənin burnunu ovdu və tarixi ədaləti bərpa etdi. Bu gün Azərbaycanın bütün ərazilərində bayrağımız əzəmətlə dalğalanır, bizlərə sonsuz sevinc və qürur hissi yaşadır. Təsəlli yerimiz də elə bundadır. Şəhidlərimizin, o cümlədən də Qarakənd faciəsinin qurbanlarının qanı yerdə qalmayıb. İndi onların azad ruhları azad Vətənin göylərində uçur...

*MÜBARİZ*

# Ən etibarlı hesab olunan platformalar belə çökə bilər...

## Saytlara giriş niyə məhdudlaşmışdı?

Bu günlərdə dünyanın müxtəlif regionlarında internet istifadəçiləri kütləvi şəkildə saytlara daxil olmaqda çətinliklərlə üzləşiblər. Problemin qlobal miqyasda "Cloudflare" sistemində baş verən böyük nasazlıqdan qaynaqlandığı bildirilir.

Yeniazerbaycan.com xəbər verir ki, bir çox ölkədə sosial şəbəkələr də daxil olmaqla müxtəlif internet resurslarına giriş çətinləşib, bəzi saytlara isə ümumiyyətlə, daxil olmaq




mümkün olmayıb. Nasazlıq həm mobil internet istifadəçilərini, həm də genişzolaqlı bağlantıdan istifadə edənləri əhatə edib. Ekspertlər isə bildiriblər ki, "Cloudflare"in xidmətləri dünya üzrə milyonlarla internet resursunun təhlükəsizlik və məlumat ötürülmə infrastrukturunda mühüm rol oynadığından şirkətdə baş verən kiçik nasazlıq belə qlobal miqyasda problem yarada bilər.

Şirkətin yaydığı rəsmi açıqlamada bildirilib ki, yaranmış problem barədə araşdırmalara başlanılıb və çaşdırıcı halların qarşısını almaq üçün ictimaiyyətə mütəmadi məlumat veriləcək. "Cloudflare" onu da qeyd edib ki, daha əvvəl planlı texniki xidmət işləri aparılıb. Lakin bundan sonra şirkətin dəstək portalında da provayderlə bağlı gözlənilməz nasazlıq baş verib. Bu səbəbdən istifadəçilər dəstək sistemi ilə əlaqə saxlayarkən xətalarla üzləşə bilər.

İlkin ehtimallar belə idi:

- "Cloudflare"in DNS və ya CDN infrastrukturunda yaranan qəza
- Provayder səviyyəsində texniki nasazlıq
- Planlı texniki işlərdən sonra ortaya çıxan gözlənilməz texniki uyğunsuzluq
- Bəzi regionlarda serverlərin həddindən artıq yüklənməsi

Mütəxəssislər qeyd edir ki, "Cloudflare" infrastrukturunda hər hansı kəsinti baş verdikdə, dünya üzrə on minlərlə sayt eyni vaxtda əlçatan olmaya bilir.

**Heç bir qlobal xidmət 100 faiz zəmanət vermir**

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz yeniazerbaycan.com-a açıqlamasında bildirib ki, baş verən hadisə ölkənin milli rəqəmsal infrastrukturunun dayanıqlığı ilə bağlı mühüm reallığı üzə çıxardı. Onun sözlərinə görə, xarici asılılıqlar ciddi fəsadlara səbəb ola bilər və bu, "rəqəmsal suverenlik" anlayışının mahiyyətini bir daha nümayiş etdirir:

"Qlobal problemə baxmayaraq, kritik təhlükəsizliyə cavabdeh olan XRİTDX və DTX-nin təsir dairəsində olan əksər dövlət qurumlarının saytları normal çalışıb. Qısa monitorinq göstərdi ki, vacib gov.az resurslarında hər hansı ciddi problem yaşanmayıb. XRİTDX tərəfindən qurulan və mühafizə edilən dövlət informasiya ehtiyatları - AzStateNet və GOV.AZ zonası - qlobal nasazlıqdan təsirlənməyib. Təhlükəsizlik qurumları lokal mühafizə sistemlərindən və daxili AzStateNet şəbəkəsindən istifadə etdiyinə görə bu sahədə dayanıqlıq təmin olunub."

O.Gündüz əlavə edib ki, həmin gün "Cloudflare" xidmətindən istifadə edən Azərbaycanın özəl sektoru, bəzi ictimai qurumları və media resurslarının əksəriyyəti fəaliyyətini dayandırıb. Özəl sektor dayanıqlılıq və rahatlıq baxımından "Cloudflare" kimi qlobal xidmətlərə üstünlük versə də, son hadisə göstərdi ki, ən etibarlı hesab olunan bu platformalar belə çökə bilər.

"Qlobal səviyyədə etibarlı bir resursun sıradan çıxması ölkə daxilində biznes fəaliyyətinin dayanmasına səbəb oldu. Bu, xüsusilə kritik sahələr üçün ciddi dərsdir. Görünən odur ki, heç bir qlobal xidmət 100 faiz zəmanət vermir. Xarici asılılıq isə nəzarətinizdən kənar risk deməkdir. Bu səbəbdən hibrid müdafiə strategiyasına - yerli təhlükəsizlik həlləri ilə qlobal xidmətlərin birləşdirildiyi modellərə - keçid daha doğru olardı. Eyni zamanda, dövlət tərəfindən özəl və ictimai resursların da, kritik olmasalar belə, təhlükəsizlik perimetrinə daxil edilməsi faydalı ola bilər".

"İdeal Web Network" şirkətinin təsisçisi Elşad Qasımlı isə bildirib ki, saytların çökməsinin bir neçə texniki səbəbi mövcuddur. Onun sözlərinə görə, sayt hazırlanarkən edilən səhvlər sonradan ciddi problemlər yarada bilər: "Proqramlaşdırma dillərindən düzgün istifadə edilməməsi, server infrastrukturunun zəif olması, kənar hücumlar və normadan artıq sorğuların serveri yükləməsi nəticəsində saytların sürəti zəifləyir və çökmə baş verir."

E.Qasımlı vurğulayıb ki, veb sayt sifariş edilərkən peşəkar mütəxəssislərə müraciət olunması son dərəcə vacibdir.

İT mütəxəssisi Vasif Qəhrəmanov isə qeyd edib ki, yaşanan problem təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində istifadə olunan platformalarda öz təsirini göstərib: "Saytların təhlükəsizliyini təmin edən qlobal platformalar mövcuddur və bu sistemlər müxtəlif serverlərdən mütəmadi sorğular göndərir. Həmin sorğulara cavab olaraq işə düşən qorunma mexanizmi isə saytların müvəqqəti dayanmasına səbəb olub."

Onun sözlərinə görə, proses müvəqqəti xarakter daşıdığı üçün əlavə müdaxiləyə ehtiyac yoxdur, sadəcə gözləmək kifayətdir.

***Elşən Yəhyayev,***
***Yeniazerbaycan.com saytının redaktoru***

# "Freedom House"dan növbəti qərəzli "hesabat"...

## "Təşkilat" ənənəsinə sadiq qalaraq böhtan, şər və yalandan əl çəkməyib

Azərbaycanın yürütdüyü sabit və davamlı inkişaf xətti, dövlət maraqlarını özündə ehtiva edən siyasət kursu xarici anti-azərbaycançı dairələri, ötən illər ərzində daha çox ermənipərəst mərkəzlərin əlaltısı kimi tanınan bəzi "hüquq müdafiə" strukturlarını açıq şəkildə narahat etməkdədir. Bunun nəticəsidir ki, "hüquq müdafiəsi" amilini özünə pərdə edərək korporativ maraqlara xidmətçilik edən bir sıra qurumlar zaman-zaman qərəzli və əsassız açıqlamaları və ya "hesabatları" ilə gündəmə gəlməyə çalışırlar. Ölkəmiz son 5 ildə bölgədə yeni siyasi-iqtisadi mənzərə yaradıb, o cümlədən, beynəlxalq aləmdə tolerantlıq məkanı kimi tanınır, mühüm beynəlxalq tədbirlərin keçirildiyi ünvana çevrilib, ən əsası isə beynəlxalq hüquqa və demokratik prinsiplərə sədaqət nümayiş etdirir - bu fakt anti-Azərbaycan mövqeyi ilə tanınan "Freedom House" kimi özünü "demokratiya keşikçisi" qismində təqdim edən, əslində isə milli dövlətlərə qarşı səlib yürüşü aparanların "ürəyincə deyil". Bu "hüquqçu təsisat" ölkəmizə münasibətdə hər zaman "fərqli standart"dan çıxış edir. Bu dəfə də ənənəvi qərəzli yanaşmanın şahidiyik...

Məsələnin mahiyyətinə keçməmiş bildirmək yerinə düşər ki, faktiki olaraq Dövlət Departamentinin strukturu sayılan "Freedom House"un "mövqeyi" təmsil etdiyi ölkənin siyasi xətti ilə uzlaşmır. "Freedom House"un irəli sürdüyü "ittihamlar"ın əksəriyyəti ABŞ-ın regionla bağlı siyasəti ilə uzlaşmır - bu barədə bir az sonra. İndiki məqamda isə, ikili standarta əsaslanan "hesabat"ın bəndlərinə nəzər saldıqda açıq qərəz, boş ittiham, yalan mövqe və şər-böhtan bütün mənalarda özünü büruzə verir.

### Azərbaycan internet istifadəçilərinin sayına görə...

"Freedom House"un budəfəki hesabatı da mahiyyət etibarı ilə özündən əvvəlkilərdən fərqlənmir. Təşkilatın rəsmi saytına istinadən yeni hesabatda iddia edilir ki, "Azərbaycan hökuməti müntəzəm olaraq internet bağlantılarını məhdudlaşdırır və hökuməti tənqid edən media orqanları da daxil olmaqla, veb saytları bloklayır".

Heç bir əsası olmayan bu iithamlar yalnız boş taftalogiya və cəfəng böhtandır. Azərbaycan bu gün internet istifadəsinə görə dünyada ən öncül sıralarda yer alan dövlətlərdəndir. Əhalinin hər 10 nəfərinə düşən internet istifadəçilərinin sayı əgər 2019-cu ildə 81 nəfər idisə, bu göstərici 2023-cü ildə 89 nəfərə çatıb. Bu isə həm regionda, həm də qlobal coğrafiyada ən yaxşı göstəricilərdən sayılır.

Azərbaycanda internetin məhdudlaşdırılmasından isə söhbət belə gedə bilməz -ölkədə sosial şəbəkələrdə aktivlik kifayət qədər yüksəkdir. Fərqli fikrə, fərqli siyasi dünyagörüşünə malik insanlar internetdən azad şəkildə istifadə edirlər. nəzərə alsaq ki, hətta bəzi radikal müxalifət nümayəndələri xarici ölkələrdə reallaşan bəzi tədbirlərə onlayn şəkildə qoşulurlar, bu özü də ölkəmizdə kəsintisiz internetin olduğunu təsdiqləyən vasitələrdən biridir.

O ki qaldı, hökuməti tənqid edən media orqanları da daxil olmaqla, veb saytların bloklanmasına, bu da qərəzli mövqedir, böhtandır. Azərbaycanda media orqanlarının fəaliyyətinə hər zaman stimul verilir. Hətta veb-saytların inkişafı üçün dövlət müvafiq strukturlar üzərindən onların sosial vəziyyətinin stimullaşdırılması istiqamətində mühüm addımlar atılır. Bu proses şəffaf və demokratik şəkildə reallaşır. Bu mənada, "Freedom House"un irəli sürdüyü iddiaların yalan olması bütün rakurslardan özünü büruzə verir.

### Hüquqi dövlət anlayışını qavramayanlar...

Maraqlıdır ki, Rusiyanın bəzi anti-Azərbaycan mövqeli xəbər agentliyinin və saytlarının bloklanmasını "əlində əsas" tutmağa çalışan "Freedom House" bu məsələdən "narahatlıq" keçirib. Ən maraqlı "iddialardan" biri də xaricdəki "söyüş müxalifəti"nin Azərbaycan Baş Prokurorluğuna çağırılmasına reaksiyadır - "Freedom House" bütün prinsiplərinə arxa çevirərək dövlət əleyhinə çağırışlar edənləri "hökuməti tənqid edən şəxslər" adlandırır, bunu "təzyiq kimi qiymətləndirir.

İlk növbədə vurğulanmalıdır ki, Azərbaycan hüquqi dövlətdir və bütün prinsipləri, bütün məsələlər məhz qanun, hüquq çərçivəsində tənzimlənir. Bu mənada, ölkədə hər hansı qurumun və ya saytın fəaliyyətinin məhdudlaşdırılması birbaşa məhkəmə qərarına əsaslanır. Məhkəmə isə bu prosesi faktlara və dəlillərə əsaslanaraq aparır, qərar qəbul edir. Maraqlıdır ki, "Freedom House"un təmsil olunduğu ölkədə bu proses necə inkişaf edir - yəqin ki, orada da qanunu pozanın kim olmasından asılı olmayaraq onlara qarşı müvafiq ölçülər götürülür. Bəli, Azərbaycanda da bu belədir -qanunun pozulduğu anda hüquq işə düşür və lazımi qərar qəbul olunur.

O ki qaldı, bəzi xaricdə oturan şəxslərin Azərbaycan Baş Prokurorluğuna çağırılmasına, burada da əlavə reaksiya yersizdir. Azərbaycan Baş Prokurorluğunun çağırışı da qanun çərçivəsindədir və bu müəyyən hüquqi prosedurlarla bağlıdır. Buna don geyindirmək isə məhz "Freedom House" kimi qərəzli təşkilatların işidir. Axı, həmin şəxslərdən əlavə də Baş Prokurorluğu dəvət edilən şəxslər var, müəyyən hüquqi prosudurlar həyata keçirilir - nə üçün Freedom House" məhz bu şəxslərin çağırılmasına reaksiya göstərir? Demək ki, ortada qərəz və fərqli maraqlar mövcuddur...




### "Freedom House" öz ölkəsinin mövqeyinə qarşı...

"Freedom House"un ən "gül vurduğu" məqam isə "1994-cü ildən de-fakto müstəqillik əldə etmiş etnik erməni anklavı" adlandırdığı işğala haqq qazandırmasıdır. Bu "hüquq müdafiəçisi" erməni əhalinin könüllü köçüb getməsində yenidən Bakını günahlandırmağa çalışıb.

Birincisi, Azərbaycan - Ermənistan münasibətlərinin normallaşması istiqamətində sülh prosesinin ən vacib addımı məhz Vaşinqtonda atılıb - bu ilin avqustunda ABŞ-ın ev sahibliyi ilə iki ölkə arasında sülh sazişi layihəsinin paraflanması ilə bağlı razılaşma əldə edilib. Həmin sülh sazişi layihəsində isə bütün detallar qeyd edilib - "Freedom House"un ortaya qoyduğu mövqe bu mənada heç də təmsil etdiyi ölkənin maraqları ilə uzlaşmır. "Freedom House"unun mövqeyi daha çox erməni lobbisinin "arzularını" özündə ifadə edir. bu isə yolverilməzdir. Hüquqi prosesləri, beynəlxalq ədaləti hansısa lobbi maraqlarına qurban vermək adını "müdafiə təşkilatı" qoymuş "Freedom House"a "yaraşmır".

Digər tərəfdən, maraqlıdır ki, "Freedom House"un nə üçün işğalın davam etdiyi 30 il ərzində prosesi susqunluqla izləyib - hər hansı bir reaksiya verməyib. Bu gün ermənilərin könüllü şəkildə getməsini "qlobal kədərə" çevirmək istəyən "Freedom Housen nə üçün azərbaycanlıların zorla, ölüm təhdidi ilə, ayaqyalın, başaçıq öz ev-eşiklərindən didərgin salınmasına göz yummuşdu? Bu isə "Freedom House"un qərəzli olduğunu ortaya qoyan növbəti fakt kimi ön plana çıxır...

### Türkiyə hədəfə alınır, Ermənistan isə...

"Freedom House"un qərəzli olması tək Azərbaycana münasibətlə məhdudlaşmır - maraqlıdır ki, eyni mövqe Türkiyəyə qarşı da nümayiş etdirilir. Amma buna paralel olaraq Ermənistana münasibətdə olduqca yumşaq bir "ritorika" seçilir. Gözdən pərdə asmaq üçün Ermənistana qarşı yönələn "tənqidlər" isə ikibaşlı məna daşıyır. Hətta Ermənistana qarşı olan iddialarda belə Azərbaycan hədəf alınıb. "Ermənistanın son illər Azərbaycanın hərbi təzyiqindən ciddi şəkildə təsirləndiyi" qeyd edilib.

Əslində, "Freedom House"un öz imicini korlamış, heç bir beynəlxalq standartlara, qayda-qanunlara məhəl qoymayan bir quruma çevrilməsi yeni xəbər deyil - bundan əvvəlki "hesabatlarda" ortaya atılan iddialar, Azərbaycanın ev sahibliyi etdiyi COP29 tədbirinin qlobal diqqətin hədəfə alınması, guya ölkəmizdə milli-dini ayrı-seçkiliyin olması və bu kimi gülünc ittihamlar onu göstərir ki, təşkilat Azərbaycana qarşı qərəzli yanaşmanı davam etdirir.

"Freedom House"un qeyri-obyektiv və saxta rəylərə güvənərək qərəzli hesabatlar hazırlaması bu təşkilatın çirkli siyasi oyunlarda iştirakını bir daha təsdiqləyir. Bu artıq erməni təssübkeşliyi deyil - bunun adı vəzifəsini, məsuliyyətini, birbaşa məramını və məqsədini "unutmaq", satmaq, siyasi dəyənəyə çevrilməkdir. "Freedom House" bu kimi addımları ilə tək özünü deyil, təmsil etdiyi ölkənin və strukturun da imicini zərbə altına qoymuş olur...

**P.İSMAYILOV**

# Körfəzdə güc balansı dəyişir: Qlobal Cənubun yüksəlişi sürətlənəcək

## ABŞ Səudiyyə Ərəbistanı ilə strateji müttəfiq oldu

**Son onilliklər ərzində Yaxın Şərq beynəlxalq münasibətlər sisteminin ən mürəkkəb coğrafiyası olaraq diqqət mərkəzində qalsa da, son illər bölgədə tamam yeni bir siyasi dinamizm formalaşır. Artıq qlobal təhlükəsizlik arxitekturasının sərhədləri dəyişir, dünya güclərinin təsir məkanları yenidən qurulur. Bu proses həm yeni riskləri, həm də yeni təhlükəsizlik ittifaqlarını doğurur. Məhz belə həssas bir mərhələdə Səudiyyə Ərəbistanı ilə ABŞ arasında imzalanmış strateji müdafiə və təhlükəsizlik müqaviləsi regional siyasi-hərbi balansı dəyişdirən əsas hadisələrdən biri kimi dəyərləndirilir. Bu müqavilə təkcə hərbi əməkdaşlıq sənədi deyil - bir çox siyasi mütəxəssislər sənədi Yaxın Şərqdə yeni güc düzəninin formalaşmasına təkan verən çoxvektorlu bir siyasi konsepsiyanın başlanğıcı kimi qiymətləndirir.**

### Yeni müqavilə, yeni müttəfiqlik...



Səudiyyə Ərəbistanının vəliəhdi və baş naziri Məhəmməd bin Salman Əl-Səudun Vaşinqtona səfəri çərçivəsində keçirilən görüş zamanı ABŞ prezidenti Donald Tramp ölkəsinin Səudiyyə Ərəbistanına Vaşinqtonun NATO-ya üzv olmayan əsas müttəfiqi statusu verdiyini və krallıqla strateji müdafiə müqaviləsi imzaladığını açıqlayıb. "Sizə məmnuniyyətlə bildirmək istəyirəm ki, Səudiyyə Ərəbistanını rəsmi olaraq NATO-ya üzv olmayan əsas müttəfiq kimi qəbul etməklə hərbi əməkdaşlığımızı yeni səviyyəyə qaldırırıq. Bu, onlar üçün çox vacibdir. Bunu sizə indi deyirəm, çünki bu kiçik sirri bu gecəyə qədər saxlamaq istədim".

"Bu, sizin üçün bu gün daha bir qələbədir", - deyə Tramp vəliəhdə müraciət edərək bildirib. ABŞ prezidenti, həmçinin qeyd edib ki, iki tərəf "tarixi əhəmiyyətli strateji müdafiə müqaviləsi imzalayıblar". O, təfərrüatları açıqlamayıb.

Qeyd edək ki, ABŞ "Major Non-NATO Ally" (MNNA) statusunu müəyyən ölkələrə verir - bu, tam NATO üzvlüyü deyil, amma ölkələr arasında hərbi və strateji əməkdaşlıq üçün xüsusi üstünlüklər yaradır. Nümunə üçün qeyd edək ki, bu sırada İsrail, Yaponiya, Cənubi Koreya, Avstraliya və başqa dövlətlər var. Ərəb dünyasında da bu sırada olan ölkələr rast gəlinir. Belə ki, Misir, Küveyt və başqa dövlətlər də ABŞ-ın NATO-dan kənar strateji müttəfiqi sayılır. Vaşinqtonun NATO-ya üzv olmayan əsas müttəfiqləri arasında digər ölkələrin də yer alması ABŞ-ın onlarla hərbi əməkdaşlığını asanlaşdırır. Bu status qarşılıqlı müdafiə öhdəliklərini əhatə etmir.

Səudiyyə Ərəbistanı, həmçinin ABŞ-a investisiyaları təxminən 1 trilyon dollara çatdırmağı öhdəsinə götürüb. Krallıq üçün böyük hərbi alışlar, o cümlədən "F-35" qırıcı təyyarələrinin və təxminən 300 Amerika tankının potensial tədarükü barədə razılığa da gəlinib.

Beləliklə, Səudiyyə Ərəbistanı ilə ABŞ arasında imzalanmış strateji müdafiə müqaviləsi təkcə iki ölkənin yaxınlaşması deyil; bu, Yaxın Şərqdə yeni siyasi-hərbi arxitekturanın başlanğıcı, yeni təhlükəsizlik modelinin əsasıdır. Bu dəyişiklik həm regional güc mərkəzlərinin mövqelərinə təsir göstərir, həm də qlobal təhlükəsizlik sisteminin gələcək konturlarını müəyyənləşdirir.

### Ər-Riyad qlobal aktora çevrilir...

Verilən qərar, imzalanan sənəd Yaxın Şərq tablosuna yeni ştrixlər əlavə edir. Görünən budur ki, ABŞ-ın Yaxın Şərq siyasəti əvvəlki dövrlərdən fərqli olaraq daha məqsədyönlü və daha uzunmüddətli təhlükəsizlik prioritetlərinə əsaslanır. Eyni zamanda, ərəb dünyası, xüsusilə də Səudiyyə Ərəbistanı yeni beynəlxalq reallıqda passiv müşahidəçi yox, prosesləri yönləndirən əsas aktorlardan birinə çevrilməkdədir. Ər-Riyadın iqtisadiyyat, enerji və hərbi sahədə atdığı addımlar onu regional liderlikdən qlobal güc mərkəzi statusuna doğru yaxınlaşdırır. ABŞ-la imzalanan yeni strateji müqavilə isə bu yüksəlişin ən ciddi dayaqlarından biri kimi çıxış edir. Səudiyyə Ərəbistanının hərbi potensialı bu əməkdaşlığın əsas elementlərindən biridir. Ər-Riyad son illər dünyanın ən böyük hərbi büdcəyə malik on ölkəsindən biri olaraq mövqeyini möhkəmləndirib. Səudiyyə Ərəbistanının illik hərbi xərcləri 70-80 milyard ABŞ dolları civarındadır. Bu göstərici onu NATO-dan kənar ən güclü hərbi sərmayəçi dövlətlərdən birinə çevirir. Ordu modernizasiya proqramı, hava hücumundan müdafiə sistemlərinin yenilənməsi, pilotsuz uçuş aparatları strategiyasının genişləndirilməsi, raket və kosmik texnologiyalara sərmayələr Səudiyyə Ərəbistanının bölgədə hərbi çəkisini artırır. Bu fonda ABŞ-la yeni təhlükəsizlik əməkdaşlığı Səudiyyə Ərəbistanının mövcud gücünü yalnız qüvvətləndirir və onu regionun aparıcı təhlükəsizlik dayağına çevirir.

### Hərbi təhlükəsizlik, modernləşmə və yeni inkişaf xətti...

İmzalanmış strateji müdafiə müqaviləsi mahiyyət etibarilə ikitərəfli təhlükəsizlik zəmanəti, hərbi-siyasi əməkdaşlıq və modern hərbi texnologiyalara çıxış prinsiplərinə əsaslanır. Müqavilənin əsas komponentləri hava hücumundan müdafiənin gücləndirilməsi, raket təhlükəsinə qarşı kollektiv müdafiə prosesləri, kəşfiyyat məlumatlarının birgə istifadəsi, ABŞ-ın qabaqcıl silah sistemlərinin Səudiyyəyə verilməsi və ABŞ ordusunun regionda Səudiyyə ilə koordinasiya olunmuş mövcudluğudur.

Bu əməkdaşlıq Səudiyyəyə bir neçə fundamental üstünlük qazandırır. Birincisi, ölkə uzun illərdir qarşılaşdığı ballistik raket və PUA təhdidlərinə qarşı daha effektiv müdafiə mexanizmi əldə edir. İranın bölgədəki hərbi-siyasi ekspansiyası, Yəməndə Husi hərəkatının raket hücumları, Liviya və Suriya kimi münaqişə zonalarından yayılan qeyri-ənənəvi təhlükələr Ər-Riyad üçün ciddi risklər yaradır. ABŞ-la strateji təhlükəsizlik müqaviləsi isə bu təhdidlərin qarşısının alınmasında institusional zəmanət rolunu oynayır.

İkincisi, müqavilə Səudiyyə üçün texnoloji tərəqqiyə çıxış açır. ABŞ-ın ən modern hava hücumundan müdafiə sistemləri - Patriot, THAAD, yüksək dəqiqlikli raketlər, qabaqcıl PUA-lar, dəniz təhlükəsizliyi platformaları - artıq Səudiyyə ordusunun arsenalının əsas hissəsi olacaq. Bu isə Səudiyyənin regionda yalnız müdafiəçi yox, həm də stabil güc təminatçısı kimi rolunu artırır.

Üçüncüsü, müqavilə Səudiyyə Ərəbistanını qlobal enerji təhlükəsizliyinin əsas dayağı kimi qoruyur. Körfəz regionunda neft infrastrukturları daim hücum riski altındadır və ABŞ-ın bu müqavilə çərçivəsində Səudiyyə Ərəbistanı enerji obyektlərinin müdafiəsində iştirak etməsi dünya enerji bazarlarının sabitliyi baxımından da mühüm əhəmiyyət daşıyır.

Beləliklə, müqavilənin mahiyyəti Səudiyyə Ərəbistanının təhlükəsizlik konsepsiyasını yeniləyir, ona yeni güc resursları qazandırır və gələcək təhdidlərin qarşısının alınmasında strateji zərurət rolunu oynayır.

### Yeni siyasi mənzərə

Müqavilənin imzalanması yalnız ikitərəfli münasibətlərin dərinləşdirilməsi deyil - Yaxın Şərqdə siyasi balansın köklü dəyişməsi deməkdir. Uzun illər ərzində bölgədə ABŞ-ın əsas müttəfiqləri İsrail, İordaniya, BƏƏ kimi ölkələr olubsa, indi Səudiyyə Ərəbistanının rəsmi şəkildə bu siyahıya daxil edilməsi bölgənin bütün güc arxitekturasını yeniləyir. Səudiyyə Ərəbistanı Yaxın Şərqdə ən böyük iqtisadi və siyasi nüfuza malik ərəb dövlətidir. Onun ABŞ-la müttəfiqlik modelinə keçməsi ərəb coğrafiyasında güc mərkəzlərini yenidən formalaşdırır. Bu addım regionda yeni bir təhlükəsizlik xətti yaradır və ABŞ-ın regional təhdidlərin zərərsizləşdirilməsinə qarşı effektiv blok qurmasına şərait yaradır. Ər-Riyadın bu formatda iştirakçı olması həm regional təhdidlərə qarşı tədbirləri gücləndirir, həm də Yaxın Şərqdə balanslaşdırılmış güc sisteminin yaradılmasına töhfə verir.

Bu həm də ümumilikdə qlobal siyasi nizam üçün yeni bir mərhələnin başlanğıcını yaradır. Bu əməkdaşlıq Qlobal Cənub adlandırılan geniş ölkələr blokunun beynəlxalq münasibətlər sistemində daha aktiv rol almasına şərait yaradır. Əgər əvvəllər Qlobal Cənub daha çox passiv izləyici mövqeyində idisə, indi bu coğrafiya qlobal qərarların qəbulunda daha təsirli aktora çevrilmək imkanına malikdir.

Beləliklə, müqavilə Səudiyyə Ərəbistanına həm hərbi, həm siyasi, həm də iqtisadi üstünlüklər qazandırır. Ər-Riyad artıq yalnız enerji gücü deyil, həm də qlobal təhlükəsizlik sisteminin aparıcı sütunlarından birinə çevrilir.

**P.İSMAYILOV**

# Virtual pul bazarı enişdə...

## “Rəqəmsal qızıl” hesab edilən “Bitcoin” 30 min dollardan çox ucuzlaşıb

**Son günlərdə qlobal virtual pul bazarında kriptovalyutaların ucuzlaşması müşahidə edilməkdədir. Bazardakı dalğalanmaların nəticəsində bir ay ərzində investorlar son təxminən 1,1 trilyon dolları tədavüldən çıxarmaq məcburiyyətində qalıb. ABŞ-da yaşanan “shutdown” ( hökumət iqtisadi blokunda dayanma) rəsmən bitməsinə baxmayaraq, qlobal ticarət tərəfdaşları ilə yaşanan geoiqtisadi gərginliklər investorların həftə boyu risklərlə üzləşməsinə səbəb olub. Baş verən bu fraqmentasiyalar fonunda ABŞ dolları, qızıl və kriptovalyutalar kimi əsas aktiv siniflərində əhəmiyyətli qiymət dalğalanmaları müşahidə olunub.**

### İnvestorlar “Bitcoin” almağa ehtiyat edirlər

ABŞ-da hökumətin maliyyə-bank idarətməsinin bərpasından sonra bazarlarda ilkin olaraq yumşalma yaransa da, bu pozitiv reaksiyanın ömrü çox qısa çəkib. Son bir ayda gecikmiş makro-məlumatların yenidən yayımlanması investor və biznes icması üçün gözləntiləri mənfiyə doğru istiqamətləndirib, bazarlarda hökm sürən nisbi volatillik aradan qalxıb və bazar treyderləri qeyri-müəyyənliyin ilk ağır siqnallarını qəbul etməyə məcbur olub. İlk olaraq əsas tədavül aləti olan dolların riskqaçış periodu təkrarlanmaqla, dəyişkən kurs qiymətləri likvidliyi də yerindən oynadıb. Son bir həftə ərzində dolların dəyərində ucuzlaşma yenidən sabit kursa geri qayıtmaqla, əvəzində kriptobazarı silkələyib. Kriptovalyuta sektorunun “parlayan ulduzu” sayılan “Bitcoin”in qiyməti oktyabrda rekord həddə çataraq 126 min dollar hədini aşsa da, son bir həftədə 30 min dollardan çox ucuzlaşaraq 90 min dollara enib.

Bazar iştirakçıları proseslərə ABŞ-ın Mərkəzi Bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sisteminin (FES) monetar siyasətinin uçot dərəcəsinin təsirlərini də ehtimal edirlər. Onların qənaətinə görə, FES-in faiz endirimləri normal bazar konyukturasına uyğun yox, siyasi təzyiqlərə əsaslandığından maliyyə seqmentində bu halların yaranması normaldır.

Xatıraladaq ki, FES oktyabrın 30-da faiz-uçot dərəcəsini 0,25 baza bəndi azaldaraq illik 3,75-4 faiz aralığına endirib. FES-in bu addımı atmaqda əsas məqsədi aşağı inflyasiya mühitində iqtisadiyyatda müşahidə edilən geriləməni aradan qaldırmaq və maliyyə-bank sistemini daha aşağı uçot dəhlizi çərçivəsində iqtisadiyyata böyük pul axınlarını, investisiyaları təmin etməkdir. Ancaq son iki həftəlik bazar tədqiqləri yumşaq pul siyasətinin müsbət təsiredici rol oynamadığını göstərməkdədir, iqtisadi fəallıq gpöstəricisi hələ də zəif olaraq qalır.

Ölkədə işsizlik sayı artdığından işsizlik müavinəti üçün müraciətlərin sayı da çoxalıb. ABŞ-ın Əmək Nazirliyinin məlumatına görə, son ayda işsizlik müavinəti üçün müraciət edən amerikalıların sayı 232 min nəfər olub. Bundan əvvəlki dövrdə göstərici nisbətən az olub - 218 min müraciət qeydə alınıb. Ümumilikdə, cari ildə işsizlik müavinəti almaqda davam edən amerikalıların sayı 1 milyon 957 min nəfərə yüksəlib.




### Qızılın qiyməti də düşməkdədir

Makroiqtisadi göstəricilər investorlarda gələcək strateji planlaşdırma üşün mühüm əhəmiyyət daşıdığından onlar hazırkı şəraitdə blokçeyn bazarına ümidsiz yanaşmağa başalyıb. “The Daily Telegraph” nəşrin açıqlamasına əsasən, investorlar ABŞ prezidenti Donald Trampın Amerikanı “dünyanın kriptovalyuta paytaxtı” etmək ambisiyasına inamını itirərək kriptobazara sərmayə qoyuluşlarından geri çəkilməyə başlayıb.

“SPI Asset Management” şirkətinin analitiki Stiven İnnesin sözlərinə görə, Tramp “rəqəmsal aktivlər sənayesində ralli yaratsa” da sürətli yürüş səngiyib, eyforik yüksəlişindən sonra “Bitcoin”in “partlayış ajiotajı” azalmaqdadır.”Bitwise Asset Management” şirkətinin baş investisiya direktoru Metyu Hoqan isə “Bloomberg”ə bildirib ki, pərakəndə kriptovalyuta sahəsindəki əhval-ruhiyyə olduqca mənfidir, İnvestorlar daha 50 faiz geriləmədən narahatdırlar.

Kriptovalyuta ilə yanaşı, birjalarda qızılın da ucuzlaşması müşahidə olunmaqdadır. 2025-ci ilin oktyabr ayında dünya birjalarında bu əlvan metalın bir troya unsiyasının qiyməti 4 min 225 dolları ötsə də, noyabrın ikinci ongünlüyündə qiymətlər hər gün geriləməklə 4076 dollara düşüb. Analitiklər hesab edirlər ki, qızıl 3900 dollar səviyyəsinədək düşəcək. Qlobal iqtisadi indikatorlardakı mənfi göstəricilərin və ABŞ Federal Ehtiyat Sisteminin siyasəti dəyərli metalın gələcək hərəkətinə ciddi təsir göstərəcəyini istisna etmir.

### Azərbaycanda kriptovalyutalar riskli hesab edilir

Azərbaycanda kriptovalyutalara monetar baxış konservativdir, blokçeyn texnologiyalarından istifadəyə müsbət yanaşılsa da, kriptovalyuta sektoru yüksək riskli investisiya aktivləri olduğundan onun maliyyə sektorunda tətbiqi təhlükəli sayılır. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı hallarının mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində bu istiqamətdə tədbirlər görməkniyyətindədir.

Bundan başqa, kriptovalyutanın kəskin qiymət sıçrayışları valyuta seqmentində də narahatlıqlar yaradır. Avropa və Asiya ölkələrinin bəzilərində milli valyutalar dəyər itirməkdə davam edir. Ona görə də, “Bitcion”lara inteqrasiya indiki halada ölkəmizin monetar sektoru üçün də məqsədəuyğun deyil.

**E.CƏFƏRLİ**

# Təhsil və Vətənpərvərlik nümunəsi



*Köçəri Orucoğlu*

Ulu Öndər Heydər Əliyev deyirdi: “Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır”.

Bu yazıda həmin yüksək ad sahiblərindən biri - Nizami Əkbərov haqqında danışmaq istəyirəm. Çoxlarımızın rayonun ictimai-siyasi tədbirlərində onun fəallığını görüb tanıdığı Nizami müəllim haqqında yeni bir söz deməyə ehtiyac yoxdur. Lakin onu tanıtmaq, gənc nəslə örnək olan fəaliyyəti və fədakarlığını bir daha vurğulamaq hər zaman vacibdir.

Nizami müəllim yalnız peşəsini sevən bir pedaqoq deyil, həm də gənclərə sevgi və nümunə ilə yol göstərən bir müəllimdir. Zaman keçdikcə bu adi, sadə görünən insanın ömür yolu və həyat hekayəsi gələcək nəsillər üçün örnək olacaq. Bir gün kimsə onu “təhsil fədaisi” adlandıracaq.

Nizami Əkbərov ömrünün 40 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr edib. Onun fəaliyyəti təkcə şagirdlər üçün deyil, həm də həmkar müəllimlər üçün örnək olub. Nizami müəllim pedaqoji fəaliyyəti ilə yanaşı, pedaqoji kollektivə rəhbərlik etmiş və öz təcrübəsini başqalarına ötürmüşdür. Bu baxımdan onun 30 il məktəb direktoru olması faktı diqqətdən qaçmır.

1965-ci ildə Kəlbəcər rayonunun Dəmirçidam kəndində dünyaya göz açan Nizami Əkbərov orta təhsilini başa vurduqdan sonra Gəncə Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyatı ixtisasına yiyələnmişdir. Universitetə qəbul olunmasından az sonra hərbi xidmətə çağırılıb. Vətən borcunu şərəflə yerinə yetirdikdən sonra ali təhsilini davam etdirərək uğurla başa vurmuş və doğma Seyidlər kənd məktəbində pedaqoji fəaliyyətə başlamışdır.

Kəlbəcərin işğalı ilə əlaqədar Gəncədə məskunlaşdıqdan sonra 1993-1995-ci illərdə 5 nömrəli Kəlbəcər məktəbində müəllim işləyib. 1995-ci ildən isə həmin məktəbin direktoru kimi fəaliyyətini uğurla davam etdirir. Onun təşkilatçılığı, rayon icra hakimiyyətinin və təhsil sektorunun dəstəyi, eləcə də məktəb kollektivinin birgə səyi nəticəsində 5 nömrəli məktəb yeni ünvanda fəaliyyətini davam etdirir. Hazırda bu təhsil ocağında 21 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğuldur.

Nizami müəllim həm də gənc nəsilin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlər zəminində tərbiyə olunmasına xüsusi diqqət yetirir. Onun rəhbərliyi və nümunəvi fəaliyyəti sayəsində şagirdlər yalnız elmi biliklərlə deyil, həm də milli dəyərlərə və Vətənə sədaqət ruhunda böyüyürlər.

Eyni zamanda, Nizami müəllim respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edir. O, YAP Kəlbəcər rayon təşkilatının Ərazi üzrə Partiya təşkilatının sədridir və Yeni Azərbaycan Partiyasının fəaliyyətində yaxından iştirak edir, partiya dəyərlərini daim təbliğ edir. 1995-ci ildən Kəlbəcər Seçki Dairəsinin 19 saylı seçki məntəqəsinin sədri olaraq da öz vəzifəsini böyük məsuliyyətlə yerinə yetirir.

Bu gün müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad olunub. Kəlbəcər yenidən dirçəlir. İnşallah Dəmirçidam kəndinə də köç olacaq və Nizami müəllim həmin kənddə yeni qurulacaq məktəbdə öz bilik və bacarığı ilə gənc nəslə tövsiyələrini verəcəkdir.

Bu gün Nizami müəllimin 60 yaşı tamam olur. Onu ürəkdən təbrik edir, can sağlığı, uzun ömür və ailə səadəti arzulayırıq. Belə insanları tanıtmaq, onları gənc nəsil üçün örnək göstərmək hər birimizin vəzifəsidir. Nizami müəllim də bu yüksək adın, fədakarlığın və təhsilə sədaqətin ən parlaq nümunəsidir.

# “Brüssel Gürcüstan ilə dialoqdan qaçır”



Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili sosial şəbəkə hesabında Avropa İttifaqını sərt tənqid edib.

AZƏRTAC xəbər verir ki, Papuaşvilinin sözlərinə görə, Brüssel Gürcüstan Hökuməti ilə birbaşa dialoqdan yayınır.

O qeyd edib ki, həqiqətə hörmət edən və tənqidə açıq Avropa yoxdur.

“Təəccüblü deyil ki, Brüssel Gürcüstan ilə dialoqdan qaçır. Səbəb isə çox sadədir. Siz öz mövqeyinizi yalançı rəvayətlər və dezinformasiyalar üzərində quranda dəqiq bilirdiniz ki, elə ilk mübahisəli söhbətdə bu yalançı konstruksiya bircə doğru sözün toxunuşu ilə dağıdılacaq”, - deyə Papuaşvili vurğulayıb.

Qeyd edək ki, Gürcüstan-Avropa İttifaqı İnsan Haqları Dialoqu görüşü Avropa İttifaqının qərarı ilə təxirə salınıb.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Vaxtından əvvəl böyümək...

## Xoşbəxt uşaqlar xoşbəxt gələcək deməkdir

**Hər bir uşağın müdafiə olunmaq hüququ var. Bu gün uşaqların sağlam və təhlükəsiz şəraitdə böyüməsi dünya ölkələrini düşündürən məsələlərdən biridir. Uşaqlar sürətli şəkildə baş verən fiziki və psixoloji inkişaf nəticəsində yaşamaq və inkişafla bağlı yetkin insanların sahib olduqlarından daha fərqli ehtiyaclara malikdirlər. Onlar xüsusilə zorakılıq, istismar və sui-istifadə hallarına qarşı daha çox həssasdırlar. Uşaqların həyatına və firavanlığına təhlükə olan qüvvələrə təkcə erkən uşaqlıq dövründə təsadüf olunmur. Onlar getdikcə daha müdafiəsiz olur, çünki çox vaxt hüquqlarından məhrum edilirlər.**

## 250 milyondan çox azyaşlı işləyir

Təəssüf ki, bəzi hallarda uşaqların vaxtından əvvəl fiziki əməyə cəlb olunması halları ilə qarşılaşırıq. Onların sağlamlığına və gələcək inkişafına böyük zərbə vuran bu vəziyyət, yəni qeyri-qanuni əməyə cəlb edilmələri bütün dünyada aktual problem olaraq qalmaqdadır.

Uşaq Hüquqları Konvensiyasına görə, uşaq əməyinin istismarı qadağan olunub. Buna baxmayaraq, dünyada elə ölkələr var ki, orada zavodlarda, fabriklərdə və fermer təsərrüfatlarında uşaq əməyindən istifadə edilir. Bu gün iqtisadiyyatı zəif olan ölkələrdə 250 milyondan çox azyaşlı uşaq işləyir.



## İlk yeri bu ölkə tutur...

Beynəlxalq təşkilatların məlumatlarına görə, dünyada uşaq əməyinin istismarına Asiya ölkələrində 153 milyon, Afrikada 80 milyon, Cənubi Amerika ölkələrində isə 17 milyona qədər azyaşlı uşaq məruz qalır. Həmin uşaqlar dözülməz şəraitdə işlədilir və bir çox hallarda onlar öz sağlamlıqlarını itirirlər. Əksər hallarda azyaşlılar hərbi konfliktlərə cəlb edilirlər.

Uşaq əməyinin istismarı hallarının 69 faizi kənd təsərrüfatı sahəsinin payına düşür. Uşaqlar bu sahədə əsasən tütün, pambıq, düyü və kakao yığımında istifadə olunurlar. Myanma uşaq əməyinin istismarına görə ilk yeri tutur.

Bundan başqa, Hindistan, Braziliya, Banqladeş, Çin, Filippin, Nepal, Somali, Şimali Koreya, Şri-Lanka, Əfqanıstan və Pakistan da bu siyahıya daxildir.

## İş yerlərinin bölünməsi

Myanmada 7 yaşına çatmış hər üç uşaqdan biri işləyir. Bu uşaqlar çox ağır işlərdə çalışırlar. Yaxın günlərə qədər uşaq əməyi hərbi sahədə də istifadə edilirdi. Uşaqlar orduda təmizlik işləri və yük daşımaqla məşğul olurdular. Bundan başqa, uşaqlardan canlı sipər kimi də istifadə olunur. Beynəlxalq təşkilatların təzyiqindən sonra Myanma uşaq əməyini yüngülləşdirməyə məcbur edilib. İndi bu ölkədə uşaqlar yalnız tikinti sahəsində çalışırlar.

Tikinti sahəsində 8 yaşlı qız uşaqları 20 kiloqramlıq sementlə dolu qabları daşımağa məcbur edilirlər. Bu sahədə əsasən ailəvi çalışırlar və əmək haqları da valideynlərə verilir. İşləmək məcburiyyəti bu ölkədə azyaşlı uşaqların 40 faizini təhsil almaq imkanından məhrum edib. Əgər azyaşlı uşaqlar valideynləri tərəfindən başqa ölkəyə satılırsa, belə uşaqlar şanslı uşaqlar sayılırlar.

Çay plantasiyalarında çalışmaq uşaqlar üçün təhlükəsiz və perspektivli iş sayılır. Hindistanda uşaq əməyindən qızıl mədənlərində, kakao yığımında və paltarların tikilməsində istifadə edilir. Bu ölkədə kasıb ailələr öz uşaqlarını 5 yaşından qul kimi satırlar.

Banqladeşdə 18 yaşına qədər insanların 18 faizi günü 1 dollara yaşamağa məcburdur. Bu ölkədə 12 saat uşaq əməyinə görə 1,7 dollar pul verilir. Dünyanın lider istehsalçıları da uşaq əməyindən istifadə edirlər. Hindistanın “Monsanta” korporasiyasını və Çinin “Peqatron Group” kompaniyasını buna misal göstərmək olar.

Milyonlarla uşaq dünyanın bir çox ölkəsində xoşbəxt uşaqlığın nə olduğunu bilmir. Onlar ölkələrinin iqtisadiyyatı zəif olduğu üçün işləməyə məcburdurlar.

## Azərbaycanda vəziyyət necədir?

Ölkəmizdə uşaqlar, onların yaşına, sağlamlıq vəziyyətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olan əməklə məşğul olmaq hüququna malikdirlər. Bir qayda olaraq, işə düzəlmək üçün minimum yaş həddi 15-dir. 15-18 yaşında olan şəxslərlə əmək müqaviləsinin bağlanması zamanı isə valideynlərdən (qəyyumlardan) birinin yazılı razılığı olmalıdır. Orta ümumtəhsil məktəblərinin, peşə məktəblərinin, liseylərin, orta-ixtisas təhsil müəssisələrinin 14 yaşına çatmış şagirdləri sağlamlığa zərərsiz olan yüngül işlərin icrasına cəlb edilə bilərlər. Ancaq bu zaman onların valideynlərinin razılığı, dərsdənkənar vaxt ərzində istehsalat təcrübəsindən keçmək məqsədi əsas götürülür. Lakin 18 yaşına çatmamış şəxslər yaşın az, əmək bacarıqlarının və ya peşə səviyyəsinin aşağı olması səbəbi ilə işə qəbul edilməyə bilməzlər.

## 5 min manatadək cərimə

Azərbaycanın bu sahədə, hətta iqtisadiyyatı inkişaf etmiş ölkələrlə müqayisədə öndə olsa da, təəssüf ki, zaman-zaman uşaq əməyinin istismarı faktları ilə rastlaşırıq. Əmək Məcəlləsinə görə, 15 yaşına çatmamış şəxslərin işəgötürən tərəfindən işə qəbulu ilə əlaqədar vəzifəli şəxslərə 1000 manatdan 1500 manatadək, hüquqi şəxslərə isə 3000 manatdan 5000 manatadək inzibati cərimə tətbiq edilir. Sağlamlığa zərər vura biləcək işlərə yetkinlik yaşına çatmamış işçilərin qəbulu isə ümumiyyətlə qadağandır. 18 yaşına çatmamış şəxslərin ezamiyyətə buraxılması, istirahət və bayram günlərində işə çıxarılması, iş müddətindən artıq işlədilməsi, gecə işlərinə və yeraltı işlərə cəlb edilməsi də, həmçinin qanunla qadağandır.

Qeyd edək ki, bu gün Ümumdünya Uşaq Hüquqları Günüdür. BMT Baş Məclisi 1954-cü ildə bütün ölkələrə dünya uşaqlarının qardaşlığı və həmrəyliyi günü kimi bayram edilməsini tövsiyə edib. Həmin gün bütün dünyada uşaqların firavanlığının təmin edilməsinə yönəldilmiş fəaliyyətə həsr olunub.

BMT hökumətlərə uşaqlar gününün onların hər birinin məqsədəuyğun saydığı hər hansı gündə bayram edilməsini təklif edib. BMT-nin Baş Məclisi 1959-cu il noyabrın 20-də Uşaq Hüquqları Bəyannaməsini, 1989-cu ilin həmin tarixində isə Uşaq Hüquqları Konvensiyasını qəbul edib.

*Yeganə BAYRAMOVA*

# Böyük Qayıdış fonunda yeni mənzərə!

## Ölkəmizin demoqrafik göstəriciləri...

Əhalinin sayı ilə bağlı açıqlanan son rəsmi statistika Azərbaycanın demoqrafik mənzərəsində davamlı artım tendensiyasının qorunduğunu göstərir. Dövlət Statistika Komitəsindən (DSK) bildirilib ki, bu ilin əvvəlinə nisbətən əhali 28 min 758 nəfər çoxalıb və oktyabrın 1-nə olan məlumata əsasən 10 milyon 253 min 647 nəfərə çatıb. Eyni dövrdə Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə 20 min 879 nəfərin köçməsi təmin edilib, həmçinin həmin bölgələrdə müvəqqəti yaşayanlar və Qarabağ Universitetinin tələbələri nəzərə alınmaqla ümumi məskunlaşma 61 min 950 nəfərə yüksəlib. Doğum, ölüm, nikah, boşanma və miqrasiya göstəriciləri də ilin demoqrafik dinamikasının ümumi çərçivəsini formalaşdırır və hazırkı trendlər ölkənin sosial strukturunda həm makro, həm də regional səviyyədə mühüm dəyişikliklərə işarə edir.

Əhalinin ümumi sayında qeydə alınan artımın tempi əvvəlki illərlə müqayisədə nisbətən stabil görünür. Mövcud göstəricilər təbii artım və miqrasiyanın balanslı təsir göstərdiyini göstərir. Doğum səviyyəsində müəyyən enmə müşahidə olunsa da, ölkə üzrə təbii artımın qorunması demoqrafik stabillik baxımından vacib faktordur. Cari dövrdə doğumun hər 1000 nəfərə düşən göstəricisi 10,1-dən 9,4-ə enib. Bu dinamika dünya üzrə oxşar tendensiyaya uyğun gəlir. Bir çox ölkələrdə doğum səviyyəsinin azalması urbanizasiya, yaşam xərclərinin yüksəlməsi, ailə qurma yaşının artması və sosial prioritetlərin dəyişməsi kimi amillərlə izah olunur.

## Azad edilmiş ərazilərə qayıdanların sayı artdıqca...

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən iqtisadçı-ekspert Fuad İbrahimov bildirib ki, Azərbaycanın iqtisadi rayonlarında doğum səviyyəsinin fərqli olması regional sosial-iqtisadi şəraitin təsiri ilə bağlıdır: “Dağlıq Şirvan, Lənkəran-Astara, Qarabağ və Şərqi Zəngəzur kimi bölgələrdə doğum səviyyəsinin ölkə üzrə orta göstəricini üstələməsi bu ərazilərdə ailə modelinin ənənəvi xüsusiyyətlərini qoruması, urbanizasiya faizinin nisbətən aşağı olması və gənc əhali payının yüksək qalması ilə əlaqələndirilə bilər.

DSK-nın Böyük Qayıdış proqramı çərçivəsində açıqladığı rəqəmlər Azərbaycanın yeni demoqrafik xəritəsinin formalaşdığını göstərir. Azad edilmiş ərazilərə qayıdanların sayı artdıqca həmin bölgələrin sosial strukturu bərpa olunur, iqtisadi fəallıq üçün zəruri insan resursu güclənir və regionlararası balans dəyişməyə başlayır. Hazırda 61 min 950 nəfərin bu torpaqlarda məskunlaşması həm infrastrukturun bərpası, həm də sosial xidmətlərin genişlənməsi prosesinin real nəticələrindən biridir. Bu dinamikanın davam etməsi Qarabağ və Şərqi Zəngəzurun ölkənin demoqrafik xəritəsində daha yüksək paya sahib olmasını mümkün edir”.



İqtisadçı qeyd edib ki, ölkədaxili əhali nisbətində şəhər və kənd arasında demoqrafik balansın qorunması da diqqət çəkir: “Hazırda əhalinin 54,4 faizi şəhərlərdə yaşayır. Bu rəqəm urbanizasiyanın artdığını göstərsə də, kənd əhalisinin 45,6 faiz payı strukturun hələ də müxtəlifliyini saxladığını göstərir. Şəhər əhalisinin payının yüksəlməsi iqtisadi fəallığın mərkəzləşməsi, xidmət sektorunun genişlənməsi və yeni iş yerlərinin əsasən iri şəhərlərdə formalaşması ilə bağlıdır. Bu proses həm infrastruktur yükünü artırır, həm də ölkədə regionlar üzrə əhali axınlarının istiqamətini müəyyənləşdirir.

## Regional fərqlər özünü göstərir

Nikah və boşanma göstəricilərinin analizi ailə institutunun dəyişən tendensiyalarını göstərir. Cari ildə nikahların hər 1000 nəfərə düşən göstəricisi 4,7-yə enib, boşanmalar isə 2,0 səviyyəsində qeydə alınıb. Bu rəqəmlər nikah dinamikasında səngimə olduğunu göstərsə də, boşanma göstəricisindəki azalma müəyyən sosial stabilliyi əks etdirir. Regional fərqlər burada da özünü göstərir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında nikah səviyyəsinin ölkə ortalamasından yüksək olması həmin bölgələrdə əhalinin yaş strukturunun gənc olması və məskunlaşma prosesinin fəallaşması ilə bağlıdır”.

## Bu, demoqrafik risk yaratmır...

F.İbrahimov bildirib ki, ölüm göstəricisinin 5,7-dən 5,8-ə yüksəlməsi cüzi dəyişiklik kimi görünür və epidemioloji mənzərənin ümumi stabilliyini pozmur: “Ümumi artımın çox aşağı olması demoqrafik risk yaratmır, lakin əhalinin yaş strukturundakı dəyişikliklər uzunmüddətli perspektivdə sosial təminat və səhiyyə planlaşdırması üçün nəzərə alınmalı amildir.

Bütün bu göstəricilər birlikdə götürüldükdə Azərbaycanın demoqrafik mənzərəsinin stabilliyini göstərir. Təbii artımın qorunması, Böyük Qayıdış proqramı çərçivəsində yeni məskunlaşma dalğasının formalaşması, miqrasiyanın müsbət saldo ilə nəticələnməsi və regionlar üzrə tarazlığın saxlanılması ölkənin sosial və iqtisadi inkişaf strategiyasının demoqrafik əsaslarının möhkəm olduğunu təsdiqləyir. Qarşıdakı illərdə bu tendensiyaların davam etməsi əmək bazarının strukturu, regional inkişaf siyasəti və ümumi sosial planlaşdırma üçün geniş imkanlar yaradır”.

***Sahib***

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

## Azercell beynəlxalq “Etik Satınalma və Təchizat” sertifikatına layiq görülüb

**Lider mobil operator CIPS Korporativ Etika Reyestrinə daxil olan ilk Azərbaycan şirkəti oldu**

Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC “Satınalma və Təchizat üzrə Britaniya Kral Assosiasiyası” (CIPS - The Chartered Institute of Procurement & Supply) tərəfindən təqdim olunan Etik Satınalma və Təchizat üzrə Korporativ Sertifikat ilə təltif olunub. Dünyada cəmi 170-ə yaxın şirkətin daxil olduğu CIPS Korporativ Etika Reyestrində Azercell Azərbaycanın yeganə təmsilçisidir.




Şirkətin Satınalma departamenti CIPS-in ESG (ekologiya, sosial və idarəetmə) prinsiplərinə əsaslanan “Etik Satınalma və Təchizat” proqramını uğurla tamamlayaraq ətraf mühitin mühafizəsi, insan hüquqlarının qorunması, eləcə də rüşvət və korrupsiya ilə mübarizə sahələrində yüksək nəticələr əldə edib.

Bu nailiyyət Azercell-in satınalma fəaliyyətində beynəlxalq etik tələblərə sadiqliyini və təchizat zəncirində dayanıqlılığı davamlı olaraq gücləndirdiyini təsdiqləyir. Həmçinin şirkətin etik biznes mühitinin və ESG prinsiplərinə əsaslanan idarəetmə modelinin inkişafına verdiyi önəmi də bir daha gündəmə gətirir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4983
Sifariş: 2331
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova